# Vəziyyətləri qənaətbəxşdir

## Minaya düşən ANAMA əməkdaşları evə buraxılıb



**Mina hadisəsindən sonra profilaktik müayinədən keçirilən ANAMA əməkdaşları evə buraxılıb.**

ANAMA-dan verilən xəbərə görə, 17 iyun tarixində Cəbrayıl rayonu ərazisində baş vermiş mina hadisəsi zamanı yaxınlıqda olan bir neçə ANAMA əməkdaşı Beynəlxalq Minatəmizləmə Standardlarına uyğun olaraq profilaktika məqsədilə həkim müayinəsindən keçirilib, onlara psixoloji dəstək göstərilib. Belə ki, Mərkəzi Klinik Gəncə Xəstəxanasına yerləşdirilən Quliyev Ələsgər Asif oğlu və Cəbrayıllı Fərid Zakir oğlu, eləcə də Bakı şəhər Mərkəzi Klinik Xəstəxanasına yerləşdirilən Mustafayev Mahir Hüsaməddin oğlu və Gözəlov Samir Arif oğlu bütün zəruri tibbi müayinələrdən keçirilərək evə buraxılıblar. Həkim nəzarətindən keçən hər bir əməkdaşın vəziyyəti qənaətbəxşdir. İşğaldan azad edilmiş ərazilərdə təhlükəsiz mühitin yaradılmasında iştirak edən əməkdaşların sağlıq vəziyyəti hər zaman ANAMA-nın diqqət mərkəzindədir.

## "Anadolu Qartalı-2022" təlimi başlayıb

**Türkiyənin Konya şəhərində yerləşən aviabazada "Anadolu Qartalı-2022" beynəlxalq taktiki-uçuş təlimi başlayıb.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

*Qeyd olunub ki, təlimə Türkiyə Hava və Dəniz Qüvvələri ilə yanaşı, Azərbaycan, İngiltərə, İordaniya, Pakistan və NATO-dan olan hərbçilər qatılıb.*


❒ № 107 (5629), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 21 iyun 2022-ci il (çərşənbə axşamı)




# Azərbaycanın 2022-ci ildə müdafiə və milli təhlükəsizlik xərcləri artırılır

**Azərbaycanın 2022-ci ildə müdafiə və milli təhlükəsizlik xərcləri artırılır.**

Bu barədə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb.

Dəyişikliyə əsasən, müdafiə və milli təhlükəsizlik xərcləri 4 489 892 429 manatdan 5 084 759 665 manata çatdırılır. Bu vəsaitdən müdafiə qüvvələri üçün 2 164 704 591 manat, milli təhlükəsizlik üçün 295 006 782, sərhəd xidməti üçün 433 205 951 manat, müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar üçün 4 680 977, müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər üçün 2 187 161 364 manat ayrılacaq.

Müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər üçün ayrılacaq 2 187 161 364 manat vəsaitdən xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclərə 2 180 442 500 manat yönələcək.



# Şuşa da beynəlxalq diskussiya platformasına çevrildi

## IX Qlobal Bakı Forumunun əvəzsiz rolu dünyanın diqqətindədir

**IX Qlobal Bakı Forumunun iştirakçıları iyun ayının 19-da işğaldan azad olunmuş ərazilərə səfər ediblər.**

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulması və inkişafına baxış, eləcə də ərazilərin minalardan təmizlənməsi ilə tanışlıq məqsədilə həyata keçirilən səfərdə qonaqları yerli və xarici media nümayəndələri müşayiət ediblər. Forum iştirakçıları Şuşada panel müzakirələri aparıblar.

(səh.4)

# Ukraynadakı soydaşlarımız təltif olunub

## Onlar Nikolayev şəhərinin müdafiəsində aktiv iştirak ediblər



**Ukraynanın Nikolayev şəhərində müharibə zamanı şəhərin müdafiəsində göstərdikləri xidmətə görə bəzi soydaşlarımız fəxri fərmanla təltif ediliblər.**

Azərtac xəbər verir ki, cənub cəbhəsində ön xətt hesab edilən Nikolayev meri Oleksandr Senkevic Ukrayna Azərbaycanlıları Radasının(UAR) vilayət üzrə təmsilçisi Zaur Ağabəyov və onun şəhər Radasının deputatı olan oğlu Ramil Ağabəyovu şəhərin müdafiəsində göstərdikləri xidmətlərə görə fəxri fərmanla təltif edib. Ukrayna vətəndaşı olan soydaşlarımız Rusiyanın Ukrayna üzərində başladığı hərbi əməliyyatlar zamanı xüsusilə humanitar yardımlarda aktiv iştirak ediblər.

# DTX Bakıda əməliyyat keçirib

## Vəzifəli şəxslər saxlanılıb



**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Bakıda əməliyyat keçirib.**

"Şərq"in əldə etdiyi məlumata görə, dövlət qurumlarının birində baş tutan əməliyyatda vəzifəli şəxslər saxlanılıb.

Qeydi-rəsmi məlumata görə, əməliyyat Dövlət Gömrük Komitəsinin Abşeron və İpək Yolu terminallarında həyata keçirilib.

*Əməliyyatla bağlı rəsmi açıqlama veriləcəyi gözlənilir.*

# Toylara dair tələb ləğv edilir

## Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb



**Nazirlər Kabineti "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı əlavə tədbirlər haqqında" qərar verib.**

"Şərq"in məlumatına görə, qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2022-ci il 1 sentyabr saat 06:00-dək uzadılıb.

(səh.2)



# Odessa istiqamətinə 14 raket atılıb, dağıntılar var

**İyunun 20-də Odessa istiqamətində 14 raket atılıb. Odessa şəhərinə edilən raket hücumu nəticəsində isə logistik ərzaq anbarı yanıb.**

Azərtac xəbər verir ki, bu barədə Odessa şəhər Şurası məlumat yayıb.

Raketlər Odessa vilayətinin Oçakovo, Belqorod-Dnestrovski rayonuna və Odessa şəhərinin özünə düşüb.

Raket hücumu nəticəsində mülki əhali arasında itki yoxdur.

# Bakıda polis ehtiyatsızlıqdan özünü güllələyib

## Hazırda xəstənin vəziyyəti qənaətbəxşdir və həyatı üçün təhlükə yoxdur




**Bu gün səhər saat 06 radələrində Səbail Rayon Polis İdarəsinin əməkdaşı Elçin Qurbanov gecə növbəsində xidmətdə olarkən tabel silahı ilə ehtiyatsız davrandığından açılmış atəş nəticəsində xəsarət alıb.**

Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, o, dərhal xəstəxanaya çatdırılaraq həkimlərin nəzarətinə verilib. Hazırda xəstənin vəziyyəti qənaətbəxşdir və həyatı üçün təhlükə yoxdur.

# Daha 5 nəfər koronavirusa yoluxub

## Vəfat edən olmayıb, 1 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 5 yeni yoluxma faktı qeydə alınıb, 1 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

*Azərbaycanda indiyədək ümumilikdə 793 015 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 165 nəfər müalicə olunaraq sağalıb, 9 716 nəfər vəfat edib, aktiv xəstə sayı 134 nəfərdir.*

# "Azərbaycanda dövlət-din münasibətləri ən yüksək səviyyədədir"

Ceyhun Məmmədov: "Məhz bu siyasət nəticəsində ölkəmiz dünyanın əsas tolerantlıq və multikulturalizm mərkəzlərindən birinə çevrilib"

(səh.3)



# Tokayev Kremlin iddialarına ağır zərbə vurdu

Sankt-Peterburq Forumu Rusiyanın nəinki dünyadakı, hətta postsovet məkanındakı mövqelərinin təməlindən laxladığını bir daha təsdiqlədi



(səh.5)

# Şəhid ailələri və qazilərlə bağlı sosial dəstək tədbirləri geniş miqyas alıb

## Postmüharibə dövründə bu tədbirlər artıq 100 min şəxsi əhatə edərək, onlara 190 min xidmət göstərilib

**Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən genişmiqyaslı sosial dəstək tədbirləri icra edilir. Postmüharibə dövründə sosial dəstək tədbirləri 100 min şəxsi əhatə edib, onlara 190 min xidmət göstərilib.**




Azərtac xəbər verir ki, müharibədən sonra elə ilk günlərdən Vətən müharibəsi şəhidlərinin ailələri ziyarət edilərək, onlara sosial təminat hüquqlarına dair məlumat verilib. Bu şəxslərə sosial ödənişlərin təyin olunması işlərinin operativ təşkili üçün həmin günlərdən xüsusi işçi qrup yaradılıb. Şəhid ailələrinin üzvlərinə, habelə Vətən müharibəsində yaralanmış və müalicə bitdikdən sonra əlillik təyin edilmiş hərbi qulluqçulara onların müraciətinə, zəruri sənədlərin təqdim etmələrinə ehtiyac olmadan elektron sistem üzərindən proaktiv qaydada sosial ödənişlər (Prezidentin aylıq təqaüdü, pensiya və müavinət) təyin olunub.

44 günlük Vətən müharibəsinin iştirakçısı olan və aidiyyəti qurumlar tərəfindən "Müharibə veteranı" adı verilmiş şəxslərə də 2022-ci ilin əvvəlindən Prezidentin aylıq təqaüdünün təyinatı prosesini e-sistem üzərindən proaktiv qaydada həyata keçirilərək yekunlaşdırılıb.

Beləliklə, postmüharibə dövründə şəhid ailələrinin üzvlərinin və qazilərdən ibarət ümumilikdə 93 min şəxsə 104 min sosial ödəniş təyinatı aparılıb.

2021-ci ilin əvvəlindən şəhid ailələri və müharibə əlillərinin, Milli Qəhrəmanların təqaüdləri, 2022-ci ilin əvvəlindən sosial müavinətlər, o cümlədən əlilliyə görə müavinətlər orta hesabla 60 faiz artırılıb. Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin təqaüdü (2000 manat), Vətən müharibəsinin veteranlarına Prezidentin təqaüdü (80 manat) təsis olunub. Son 4 ildə şəhid ailələri, müharibə əlillərinə təqaüd və müavinətlər orta hesabla 2,5 dəfə, orta aylıq pensiya 70 faiz, yaşa görə orta aylıq pensiya 75 faiz artıb.

Dəstək paketinin mühüm bir istiqaməti kimi, şəhid ailələri və müharibə əlillərinin mənzil təminatı proqramı 5 dəfə genişlənib. 2021-ci ildə 3 min, postmüharibə dövründə 3500 mənzilin, ötən dövrdə ümumilikdə 12500-dən çox mənzil və fərdi evin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu kateqoriyalardan olan şəxslərə verilməsi təmin olunub. 44 günlük Vətən müharibəsi şəhidlərinin ailələri, həmin müharibənin əlillərinin də keçən ilin əvvəlindən mənzillə təminatı həyata keçirilir. Müharibə əlillərinin avtomobillə təminatı tədbirləri çərçivəsində son 4 ildə də 1500-dək, bu il 100, ümumilikdə ötən dövrdə 7450 müharibə əlili avtomobillə təmin edilib.

Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və müharibə iştirakçılarının aktiv məşğulluq proqramlarına cəlb edilməsi işləri də ardıcıl xarakter alıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən müharibədən sonra 12,1 min şəhid ailəsi və qazi aktiv məşğulluq proqramlarına cəlb edilib. Onlardan 7,8 min nəfəri özünüməşğulluq proqramına cəlb olunaraq onlar üçün kiçik ailə təsərrüfatları, kiçik biznes sahələri yaradılıb.

Nazirlik tərəfindən 2021-ci ildə başladılan, şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qazilərin məşğulluğuna dəstək məqsədi daşıyan "Məşğulluq marafonu"na artıq 648 işəgötürən qoşularaq 4561 vakansiya təqdim edib. Marafon çərçivəsində artıq 2400-ə yaxın şəxs işlə təmin olunub. Onlardan 1998 nəfəri qazi, qalanları şəhid ailələrinin üzvləridir. Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və müharibə iştirakçılarının əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnməsi də əsas hədəflərdən biridir. 2022-ci ilin 5 ayı ərzində peşə hazırlığına 1542 vətəndaş cəlb olunub ki, onlardan bir hissəsi də şəhid ailəsi üzvləri və Vətən müharibəsi iştirakçılarıdır. Ödənişli ictimai işlər, əməkhaqlarının bir hissəsinin birgə maliyyələşdirilməsi və s. proqramlar çərçivəsində də şəhid ailəsi üzvləri, müharibə iştirakçılarının məşğulluğuna dəstək verilməsi işləri aparılır.

Müharibədən sonra elə ilk günlərdən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əməkdaşları müharibədə yaralanmış hərbçiləri evlərində və ya müalicə aldıqları xəstəxanalarda ziyarət edərək, ilkin müayinə və qeydlər aparıblar. Növbəti mərhələdə aidiyyəti qurumların nümayəndələrindən ibarət Komissiya tərəfindən həmin qazilərin əlilliyinin qiymətləndirilməsi üçün operativ sənədləşdirmə işləri yerinə yetirilib.

Müvafiq sənədlər e-sistemlərə daxil edildikdən sonra agentlik müalicə müddəti başa çatmış qazilərin əyani müayinələr əsasında əlilliyinin qiymətləndirilməsini aparıb, artıq 3 min qaziyə əlillik və sosial ödənişlər təyin olunub. Qazilərin əlillik müddətləri bitdikcə və sənədləri əlillik üzrə e-sistemə daxil edildikcə bu qiymətləndirmələr davam edir. Ümumilikdə son 3 ildə 160 mindən çox əlillik təyinatı həyata keçirilib, bu ilin 5 ayında da əvvəlki illərin müvafiq dövrləri ilə müqayisədə 2-3 dəfə çox - 30 min şəxsə əlillik təyin edilib.

Müharibədə yaralanmış qazilərin keyfiyyətli reabilitasiya xidmətləri ilə təminatı prioritet fəaliyyət istiqamətidir və nazirliyin son illərdə müasir tələblərə uyğun qurularaq təchiz olunmuş 12 reabilitasiya müəssisəsi bu sahədə mühüm potensial rolunu oynayır.

Bu mərkəzlərdə postmüharibə dövründə 2500 qaziyə səmərəli reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilib. Vətən müharibəsində yaralanaraq əzalarını itirmiş 200 qazinin, ümumilikdə 300 müharibə əlilinin yüksək texnologiyalı son nəsil elektron protezlərlə təminatı proqramı uğurla icra olunub.

Postmüharibə dövründə 1400-dən çox müharibə əlili 19,3 mindən çox reabilitasiya vasitəsi ilə təmin olunub. Eyni zamanda. Qazi və şəhid ailələrinin üzvlərindən ibarət 2 954 ailənin 5 min üzvünə sosial-psixoloji dəstək göstərilib.




# Dövlət başçısının yeni Fərmanı...

## Hərbçilərin icbari sığorta sahəsində daha etibarlı sosial müdafiəsinə xidmət edir

**Prezident İlham Əliyevin 2022-ci il iyunun 18-də imzaladığı Fərmanı dövlət icbari şəxsi sığorta sahəsində sığortaolunanların (hərbçilər, hüquq-mühafizə orqanlarının əməkdaşları və s.) rifahının yaxşılaşdırılması və daha etibarlı sosial müdafiəsinin təmin olunmasına xidmət edir.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısının ötən ilin may ayında imzaladığı Fərmanla dövlət icbari şəxsi sığortası sahəsində səlahiyyətlər 2022-ci il yanvarın 1-dən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilib. Həmin vaxta qədər dövlət icbari şəxsi sığorta üzrə sığorta hadisələrinə görə ödənişin verilməsi isə Dövlət Sığorta Kommersiya Şirkətinin öhdəliyi kimi müəyyən olunmuşdu. Yeni Fərmanla bu sahədə dəyişiklik edilib. Belə ki, Fərmanla dövlət icbari şəxsi sığorta olunanla bağlı sığorta hadisəsinin baş verdiyini təsdiq edən sənədin tarixi 2021-ci il yanvarın 1-dək olan dövrə aid olduqda sığorta ödənişini Dövlət Sığorta Kommersiya Şirkəti həyata keçirəcək.

Sığorta hadisəsinin baş verdiyini təsdiq edən sənədin tarixi 2021-ci il yanvarın 1-dən sonraya aid olduqda isə sığorta ödənişini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu verəcək. Bu, dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin səmərəliliyinin artırılması istiqamətində növbəti mühüm addım olmaqla, sığortaolunanların maraqlarının dolğun təminatına, vətəndaş məmnunluğuna nail olunmasına imkan yaradır.

Dövlət icbari şəxsi sığortası sahəsində səlahiyyətlər bu ilin əvvəlindən nazirliyə həvalə edildikdən sonra bu sahədə köklü islahatlar aparılır. İslahatlar həmin sahədə müasir, optimal və çevik idarəçiliyin, uçot sisteminin qurulması, inzibatçılığın təkmilləşdirilməsi, idarəçilik və xidmətlərin elektron infrastrukturunun yaradılması, sığorta ödənişlərinin e-qaydada, şəffaf və operativ təyinatı mexanizminin formalaşdırılması və s. kimi istiqamətləri əhatə edir.

Eyni zamanda, sığorta ehtiyatlarının effektiv idarə olunması və bu sahədən əldə olunan gəlirlərin şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi tədbirlərinə yönəldilməsi islahatların prioritetlərindən biridir.

# Dövlətimiz dini-mənəvi dəyərlərimizə sahib çıxır

## Prezident və Birinci vitse-prezident islam dininə münasibətdə həmişə vacib nümunə göstərib



**"Azərbaycanda din dövlətdən ayrı olsa da, Azərbaycan dövləti daima dini-mənəvi dəyərlərimizə sahib çıxmaqla, onun inkişafı və qorunması üçün mümkün hər şeyi edir".**

**Bu barədə "Şərq"ə açıqlamasında millət vəkili Hikmət Babaoğlu deyib. Deputat bildirib ki, Prezident öz çıxışlarında dini mədəniyyətimizi milli mədəniyyətimizin tərkib hissəsi kimi göstərir:** "İstər paytaxt Bakı şəhərində, istərsə də regionlarımızda ardıcıl olaraq dini ibadət yerləri, məscidlər inşa olunur. Milli mirasımız olan dini abidələrimiz davamlı olaraq təmir və bərpa edilir. Bu istiqamətdə Birinci vitse-prezident Mehriban xanım Əliyeva da çox mühüm fəaliyyət həyata keçirir. Azərbaycanın hər yerində, son dövrlərdə isə işğaldan azad edilmiş ərazilərimizdə dini abidələrimizin bərpası sahəsində görülən işlər ayrıca əhəmiyyət kəsb edir". Parlamentari qeyd edib ki, Azərbaycan tərcübəsində dinə münasibət özünəməxsus tolerantlıqla səciyyələnir: "Dini dözümlülüyümüz həm də Azərbaycan multikulturalizminin əsaslarından birini təşkil edir. Azərbaycan Prezidenti və Birinci vitse-prezident islam dininin müqəddəs mərkəzi hesab edilən Məkkəni ziyarət etməklə, həm də şəxsi zəmində islam dininə münasibətdə vacib nümunə göstərib. Təsadüfi deyildi ki, Prezident İlham Əliyev öz çıxışlarının birində Həcc ziyarəti zamanı müqəddəs Kəbədə etdiyi birinci duasının torpaqlarımızın işğaldan azad olunması ilə əlaqədar olduğunu bildirdi. Ağdam işğaldan azad edildikdən sonra Birinci vitse-prezident Mehriban xanım Əliyeva Ağdam Cümə Məscidinə müqəddəs kitabımızı təqdim etdi. Bu mərasimdə məscidə daxilolma mədəniyyəti və nümunəsi göstərdi. Eyni zamanda, bu gün cəmiyyətimizdə dinin obyektiv əsaslarda dərk edilməsi üçün də Prezident İlham Əliyev tərəfindən mühüm addımlar atılır. İlahi fəlsəfəni düzgün mənimsəmək üçün universitetlər yaradılır, dini işlər üzrə xüsusi icra orqanı təsis edilir. Bütün bunlar Azərbaycan Prezidenti və Birinci vitse-prezidentin dinə olan diqqəti və qayğısının bariz təcəssümüdür".

**İsmayıl**

# MEDİA Venesiya Komissiyasının "Media haqqında" Qanuna dair rəyinə münasibət bildirib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İyunun 20-də Avropa Şurasının Venesiya Komissiyası "Media haqqında" Azərbaycan Respublikası Qanununa dair rəyini öz rəsmi veb-saytında yerləşdirib.**

Medianın İnkişafı Agentliyi (MEDİA) tərəfindən rəydə qeyd olunan məsələlərlə bağlı rəsmi mövqe yazılı şəkildə Venesiya Komissiyasına təqdim edilib və bu arqumentlərin bir qismi bu və ya digər formada yekun rəydə öz əksini tapıb.

Agentlikdən "Şərq"ə verilən məlumata görə, qanun layihəsi heç də rəydə qeyd olunduğu kimi "seçilmiş qruplarla" yox, cəmiyyətin müxtəlif seqmentlərindən olan media nümayəndələri və ekspertlərin iştirakı ilə dəfələrlə müzakirə olunub.

Keçmiş müvafiq qanundan fərqli olaraq "Media haqqında" Qanun "jurnalist" anlayışı ilə bağlı beynəlxalq təcrübəyə istinad edərək bu fəaliyyətə daha geniş prizmadan yanaşıb, yalnız ölkə daxilində deyil, həm də ölkə xaricində Azərbaycan jurnalistlərinin peşəkar fəaliyyətinin məhdudiyyətlərdən qorunmasına yönəlib. Qanun fəaliyyəti Azərbaycan Respublikasının ərazisinə və əhalisinə istiqamətlənmiş media subyektlərinin müdafiə mexanizmlərindən istifadəsinə şərait yaradır, həmçinin fövqəladə vəziyyətlərdə jurnalistlərin təhlükəsiz şəraitdə peşə borclarını yerinə yetirməsini təmin edir.

Rəydə "zorakılıq" elementi olmadığı təqdirdə dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş çağırışların dəstəklənməsi tərəfimizdən heç bir halda qəbul edilə bilməz. Uzun illər işğalçı siyasətin və terrorun qurbanı olan, ərazi bütövlüyü pozulmuş bir ölkəyə qarşı belə yanaşma hüququn aliliyi, jurnalist peşəkarlığı və xalqımızın milli maraqları ilə bir araya sığmır.

Rəydə iddia edildiyi kimi Qanunun media subyektinə dair tələblərinin (Maddə 26) başa düşülməsində hər hansı çətinlik mövcud deyildir. 26-cı maddə hər hansı mədəniyyət abidəsinə zərər vurduğuna görə cinayət məsuliyyətinə cəlb edilmiş şəxsləri deyil, ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə məhkum olunmuş şəxsləri əhatə edir və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində bu kateqoriya cinayətlər (cinsi zorakılıq, irqi ayrı-seçkilik, seksual xarakterli zorakılıq hərəkətləri və s.) konkret olaraq təsbit edilib.

Qanunda media subyektlərinin xarici şəxslər tərəfindən təsis edilməsi və xaricdən maliyyələşdirilməsi qətiyyən istisna edilmir. Belə olan halda, sadəcə nizamnamə kapitalında pay nisbəti müəyyənləşdirilir, çap medianı və onlayn media subyekti kimi fəaliyyət göstərmək üçün şəxsin Agentliyə məlumat verməsi icazə deyil, bəyanetmə xarakteri daşıyır ki, bunu lisenziya proseduru ilə eyniləşdirilmək əsassızdır.

Media Reyestrinə daxil edilmək üçün jurnalistlərə qoyulmuş tələblərin şərhi zamanı çox önəmli bir nüansın diqqətdən qaçırıldığı, reyestrin onlar üçün könüllü olduğu, reyestrə daxil edilməmiş jurnalistlərə münasibətdə hər hansı məhdudlaşdırmanın tətbiqinin müzakirə mövzusu olmadığı bildirilib.

Fəaliyyət qabiliyyəti olmayan və məhdud fəaliyyət qabiliyyətli şəxslərin dairəsi izah edildikdən sonra Venesiya Komissiyası bu məsələ ilə bağlı MEDİA Agentliyinin yanaşmasını qəbul edib.

Qanunun 15.1.3-cü və 15.1.4-cü maddələrinin hər hansı cinayət hadisəsinə dair bütün məlumatları deyil, yalnız və yalnız ibtidai araşdırma məlumatlarını nəzərdə tutduğu ətraflı şəkildə izah olunub, nəticədə Venesiya Komissiyasının bu maddələrlə bağlı yanaşması daha adekvat şəkildə ifadə edilib.

Təəssüflə vurğulayırıq ki, bəzi media subyektlərinin Komissiyanın rəyində əks olunmuş fikirləri kontekstdən çıxararaq təqdim etməsi ictimai fikirdə çaşqınlıq yaratmağa hesablanıb və Azərbaycanda həyata keçirilən media islahatlarına tendensiyalı münasibətin nəticəsidir. Venesiya Komissiyasının öz rəyində Qanunun bir çox maddələrini müzakirə predmetinə çevirməməsi, MEDİA Agentliyinin mövqeyi ilə uzlaşan yanaşma sərgiləməsi təqdirəlayiqdir və beynəlxalq təşkilatla səmərəli dialoqun göstəricisidir.

# Bayden neftin bahalaşmasından məmnun deyil

## Qarşıdakı seçkinin nəticələri Demokratlar Partiyası üçün acınacaqlı ola bilər



**ABŞ Prezidenti Co Bayden dünya üzrə neft və qaz istehsalçılarını hasilatı artırmağa çağırıb. Amerikanın Enerji naziri Cennifer Qranholm deyib ki, prezidentin xahişi neft ixrac edən ölkələrə, OPEC-ə və yerli neft və qaz istehsalçılarına da aiddir. Qranholm gələn həftə ABŞ-ın neft və qaz şirkətlərinin rəhbərləri ilə görüş planlaşdırdığını bildirib.**

*Baydenin neftlə bağlı ricasını "Şərq"ə dəyərləndirən iqtisadçı Natiq Cəfərli deyib ki, Ağ Ev rəhbərinin xahişi neft qiymətlərinin dünya bazarında bahalaşması ilə bağlıdır. Ekspertə görə, neftin qiymətinin bahalaşması benzinin də qiymətini artırır:* "Amerika benzin, avtomobil ölkəsidir. Nəzərə alaq ki, hazırda benzinin qiyməti əvvəlki dövrlərlə müqayisədə maksimum həddə çatıb. Co Beyden administrasiyası bundan heç də məmnun deyil. Noyabr ayında ABŞ-da aralıq seçkilər var. Həm Konqresə, həm də Senata seçkilər keçiriləcək. Seçkinin nəticələri Demokratlar Partiyası üçün acınacaqlı ola bilər. Bunun qarşısını almağın yollarından biri ölkədə inflyasiyanı azaltmaq, qiymət artımının qarşısını almaqdır. O cümlədən benzin qiymətinin aşağı çəkilməsi üçün addımların atılmasıdır. Neft ixrac edən ölkələrin potensialı fərqlidir. Əsas potensiali olan ölkələrdən biri Səudiyyə Ərəbistanıdır və böyük ehtimal bu ölkə neft hasilatını tərəddüd etmədən artıracaq. Ərəbistan neft hasilatını günə ən azı 1 milyon barrel artıra bilər. Yaxın günlərdə Co Baydenin Səudiyyə Ərəbistanına səfəri gözlənilir. Səfər çərçivəsində əsas müzakirə mövzularından biri neft hasilatının artırılması olacaq. Əgər Ər-Riyad Ağ Ev rəhbərinin təklifinə müsbət cavab verərsə, neft hasilatını artırmaq mümkün olar. Bu reallaşarsa, neftin bir barrelinin qiyməti 100 dollardan aşağı düşəcək. İndiki qiymətlərlə benzinin ucuzlaşması qeyri-mümkündür".

**İsmayıl Qocayev**




# Rusiya bankı Gürcüstanı tərk edir, Azərbaycanda qalır

**Rusiyanın sanksiyalara məruz qalan "VTB Bank"ı Gürcüstan bazarını tərk edir.**

"Report"un Gürcüstan bürosu xəbər verir ki, bu barədə bankın rəhbəri Andrey Kostin "İnterfaks" agentliyinə müsahibəsində bildirib. Onun sözlərinə görə, bank yalnız Gürcüstanı tərk etmək barədə qərar verib: "VTB Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Çin və Hindistanda qalmaqda davam edir. Bizim mövqeyimiz prinsipialdır, biz hər yerdə qalırıq. Bu ölkələrdə biznesimizin inkişafı üçün perspektivlər görürük. Biz yalnız Gürcüstandan gedirik, bu ölkədə vəziyyət bir qədər başqadır". Qərb ölkələrinin Rusiyaya Ukraynadakı müharibəyə görə tətbiq etdiyi maliyyə sanksiyalarından sonra 1995-ci ildə təsis olunmuş "VTB Bank"ın Gürcüstan bölməsi fiziki şəxslər, borc alanlar və depozitlərə xidmət göstərmək hüququndan məhrum edilib. Bankın pərakəndə kredit və depozit portfeli "BasisBank"a, hüquqi şəxslərə xidmət portfeli isə "Liberty Bank"a verilib.

# Toylara dair tələb ləğv edilir

## Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb



**Nazirlər Kabineti "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi Məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı əlavə tədbirlər haqqında" qərar verib.**

"Şərq"in məlumatına görə, qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2022-ci il 1 sentyabr saat 06:00-dək uzadılıb.

Müəyyən edilib ki, 2022-ci il iyunun 21-dən etibarən xüsusi karantin rejimi ilə bağlı aşağıdakı məhdudiyyətlər ləğv edilir:

- ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda, parklarda və digər yerlərdə şəxslərin (yaxın qohumlar, yəni ata-ana, nənə-baba, uşaqlar və bacı-qardaşlar istisna olmaqla) 10 nəfərdən artıq qruplarda cəmləşməsinin qadağan olunması tələbi;
- şənlik mərasimlərinin təşkili və keçirilməsi zamanı məlumatların "icaze.e-gov.az" portalına daxil edilməsi, həmçinin şənlik mərasiminin sahibi və şənlik mərasiminin keçirildiyi məkanın sahibi arasında müştərək məsuliyyət barədə imzalanan iltizamnamə tələbi.




# "Bakı Forumunda Prezident bir neçə mesaj verdi"

Cavid Osmanov: "Azərbaycan Qarabağ münaqişəsini özü həll edib və buna görə də Minsk qrupunun fəaliyyətinə artıq ehtiyac yoxdur"

**"IX Qlobal Bakı Forumunda çıxışı zamanı Prezident İlham Əliyev Azərbaycan həqiqətlərini bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı".**

Bunu millət vəkili Cavid Osmanov deyib. Deputat bildirib ki, ölkə başçısı xalqımızın milli ləyaqətinin bərqərar olunması ilə nəticələnən müharibədə Azərbaycanın qalib gəldiyini, müharibənin labüd olduğunu söylədi: "Azərbaycanın apardığı müharibə ədalətli idi. Ermənistan otuz ilə yaxın bir müddətdə Azərbaycan torpaqlarını işğalda saxlamış və həmin ərazilərdə misilsiz vandalizm aktları törətmişdi. Azərbaycanın apardığı düzgün siyasət nəticəsində Ermənistan beynəlxalq ictimaiyyət tərəfindən işğalçı və təcavüzkar kimi tanındı. Müharibə bitdikdən sonra isə hər kəs onların işğal zamanı hansı dağıntıları törətdiklərini əyani formada gördü. Ermənistanın işğalçılıq siyasəti nəticəsində 30 il ərzində Cənubi Qafqaz parçalanmışdır. Azərbaycan sülh və əməkdaşlıq tərəfdarıdır və artıq sülh, əməkdaşlıq yaratmaq vaxtıdır. IX Qlobal Bakı Forumunda Prezidentin çıxışında digər mesajlardan biri ATƏT-dən mandat almış Minsk qrupu ilə bağlı idi. Dövlət başçısı bildirdi ki, Minsk qrupu 28 il ərzində heç bir nəticə əldə etməyib. Odur ki, Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya Azərbaycanda yalnız qıcıq doğurur. Münaqişə həll olunduğu üçün Minsk qrupu tərəfindən işlənib hazırlanmış Madrid prinsipləri də öz həllini tapıb. Azərbaycan Qarabağ münaqişəsini özü həll edib və buna görə də Minsk qrupunun fəaliyyətinə artıq ehtiyac yoxdur. Minsk qrupu öz funksiyasını itirib. İndi Azərbaycan Ermənistanla münasibətləri normallaşdırmağın yolları barədə düşünür və sülh müqaviləsi imzalamaqda maraqlıdır".

Parlamentari qeyd edib ki, ölkə rəhbəri Ermənistanın üçtərəfli Bəyanata əməl etməli olduğunu qeyd edərək Zəngəzur dəhlizinin açılmasını regionda sülhün və təhlükəsizliyin təmin olunmasında fundamental elementlərindən biri kimi səciyyələndirdi: "Qeyd olundu ki, münasibətlərin normallaşmasında maraqlı olan Azərbaycanda bütün millətlərin nümayəndələri, o cümlədən illər boyu Azərbaycanda yaşayan ermənilər bərabər hüquqa malikdirlər. Forumda Prezident Ermənistan və müəyyən dairələrə dırnaqarası statusla bağlı növbəti dəfə xəbərdarlıq etdi. Bildirdi ki, Azərbaycan ərazisində "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi mövcud deyil. Bir vaxtlar əsassız şəkildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayəti isə Azərbaycan Parlamentinin qərarı ilə 1991-ci ilin sonlarında ləğv edilib. Dırnaqarası statusla bağlı istənilən istinad yeni qarşıdurmaya gətirib çıxaracaq. Ermənistan hökuməti bunu anlamalı və tarixi yenidən yazmaq cəhdlərindən çəkinməlidir, çünki tarix artıq yazılıb. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü sual altına qoyacaqsa, Azərbaycan üçün Ermənistanın ərazi bütövlüyünü sual altına qoymaqdan başqa çıxış yolu olmayacaq. Ötən əsrin tarixində aydın göstərilir ki, 1920-ci ilin noyabrında, sovet hakimiyyəti Azərbaycanın tarixi parçası olan Zəngəzuru Ermənistana birləşdirdi. Deməli, tarixi nöqteyi-nəzərdən Azərbaycanın bunu etməyə hüququ var".

**İsmayıl**

**Azərbaycanda dövlət-din münasibətlərinin inkişafı, islam dəyərlərinə hörmətlə yanaşma hər zaman vacib məsələlərdən olub. Bu amillər Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın da daim diqqət mərkəzində dayanıb. Ölkəmizdə dövlət-din münasibətləri istiqamətində həyata keçirilən uğurlu siyasətin davamı olaraq Azərbaycan bir neçə dəfə beynəlxalq dini konfransların keçirilməsinə rəhbərlik edib.**

Xüsusilə dinlərarası və mədəniyyətlərarası dialoq, multikulturalizmin inkişafı qeyd edilən konfransların əsas müzakirə mövzuları olub. Azərbaycanda dini məbədlərin qorunması, bərpası, dini etiqad azadlığının olunmuş ərazilərdə də açıq şəkildə göstərir. Ağdamda, Şuşada, Zəngilanda bilavasitə cənab Prezidentin və Mehriban xanımın diqqət və qayğısı ilə yeni məscidlər, dini ibadət ocaqları qurulur, inşa olunur. Yaxşı xatırlayırıq ki, dövlətimizin başçısı və birinci xanımımız bütün səfərlərində buradakı məscidlərə gedərək oradakı məscidlərdə dualar edirlər. Hətta özləri ilə bərabər apardıqları Quranı da məscidlərə hədiyyə edirlər və hər zaman hörmətlə yanaşırlar. Heydər Əliyev Fondunun xətti ilə azad olunmuş ərazi-



# "Azərbaycanda dövlət-din münasibətləri ən yüksək səviyyədədir"

Ceyhun Məmmədov: "Məhz bu siyasət nəticəsində ölkəmiz dünyanın əsas tolerantlıq və multikulturalizm mərkəzlərindən birinə çevrilib"

milli dəyərlərimizin əsasında inkişaf etməsi daim diqqət mərkəzində yer alıb. Prezident İlham Əliyevin Məkkədə Həcc ziyarətində olması da müsəlmançılıq ideyalarına Azərbaycan xalqı ilə birlikdə sadiqliyinin əsasını təşkil edib. 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunduqdan sonra nəzərdə tutulan əsas infrastruktur layihələrindən biri məhz Azərbaycan xalqının məscidlərinin, qədim abidələrinin bərpası olub. İşğaldan azad olunmuş Ağdam və Şuşa şəhərlərinə Prezident İlham Əliyev ailəsi ilə birlikdə səfəri zamanı hər iki şəhərdə bərpa edilən məscidlərə baş çəkib, görülən işlərlə yerindəcə tanış olub. Çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda din-dövlət münasibətləri bu gün də yüksək səviyyədədir və bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əfsuslar ki, Azərbaycandakı daxili sabitliyi, islam dəyərlərinin inkişafını, dini mühitin azadlığını gözü götürməyən bəzi xarici dairələr və onların daxildəki maşaları ara-sıra təxribatlara əl atırlar. İnanclı vətəndaşlar arasında nifaq salmaqla müəyyən dini kəsimi öz çirkin oyunlarına alət etməyə cəhd göstərirlər.

**Dövlət-din münasibətləri ilə bağlı "Şərq"ə danışan Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Ceyhun Məmmədov bildirib ki, Azərbaycanda hər zaman dinimizə, milli-mənəvi dəyərlərimizə dövlətin diqqət və qayğısı yüksək olub.** Millət vəkilinin sözlərinə görə, bu münasibətlərə zərbə vurmaq cəhdləri əbəsdir.

**- Ceyhun müəllim, Azərbaycan dövlətinin, ələlxüsus ölkə rəhbərliyinin dini sahəyə göstərdiyi qayğı və diqqəti necə dəyərləndirirsiniz?**

- Azərbaycanda dövlət-din münasibətləri ən yüksək səviyyədədir. Biz hər zaman Azərbaycan Prezidentinin, Birinci vitse-prezidentin məscidləri ziyarət etdiklərinin şahidi olmuşuq. Bu, özünü işğaldan azad lərdə məscidlərin tikintisi ilə bağlı böyük işlər həyata keçirilir. Zəngilan məscidi Fond tərəfindən təmir və bərpa olunur. Eyni zamanda bu işlər Şuşada və digər ərazilərdə gedir. Daşaltıda, Hadrutda, Suqovuşanda bilavasitə Prezident İlham Əliyevin rəhbərliyi, diqqət və qayğısı ilə yeni məscidlər inşa olunur. Təkcə azad olunmuş bölgələrdə yox, Bakıda, Şamaxıda bu işlərin yüksək səviyyədə həyata keçirildiyini görürük. Mehriban xanımın bu prosesdə fəal iştirakı ilə Bibiheybət, Təzə Pir, Şamaxı Cümə məscidlərində də yüksək abadlıq, quruculuq işləri həyata keçirilib. Bu məscidlər bu gün Azərbaycana gələn bütün qonaqları heyran edir. Bu yerlər Azərbaycanda islam dünyasının gözəl, füsunkar ibadət yerlərindən birinə çevrilib. Azərbaycanda təkcə müsəlman dini abidələrinə deyil, digər dinlərin də dini ibadət yerlərinə yüksək diqqət və qayğı göstərilir. Qeyd olunanlara əsasən tam əminliklə söyləyə bilərik ki, bu gün ölkəmizdə milli-mənəvi dəyərlərimizə yüksək diqqət və qayğı var. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan dünyanın əsas tolerantlıq və multikulturalizm mərkəzlərindən birinə çevrilib.

**- Dini islahatlardan biri də Azərbaycan İlahiyyat İnstitutunun yaradılması idi. Sizcə, bu ali təhsil ocağı milli və dini kadrların yetişdirilməsində mühüm rol oynayacaqmı?**

- Prezident İlham Əliyevin din sahəsinə ən böyük diqqət və qayğısının biri də İlahiyyat İnstitutunun yaradılması oldu. Bu gün bu İnstitut bölgənin aparıcı təhsil müəssisələrindən birinə çevrilib, yeni bina ilə təmin olunub. Artıq Azərbaycan öz milli kadrlarını hazırlayır və bu istiqamətdə mühüm addımlar atır. Şübhəsiz, Azərbaycan İlahiyyat İnstitutu ölkəmizdə savadlı dini kadrların yetişdirilməsinə ciddi töhfə verəcək. Xatırladım ki, İlahiyyat İnstitutu yaradılmamışdan öncə vətəndaşlarımız dini təhsil almaq üçün müxtəlif xarici ölkələrə üz tuturdular. Bir sıra hallarda da zərərli dini təsirlərə məruz qalırdılar. Ölkəmizdə İlahiyyat İnstitutunun yaradılması həm dini təhlükəsizliyin təmin olunmasına, həm dövlət-din münasibətlərinin yüksək səviyyədə qorunmasına, tənzimlənməsinə öz töhfəsini verəcək. Biz bunu cənab Prezidentin siyasətində aydın görürük. Milli kadrların yetişdirilməsi prioritet olaraq bizim qarşımızda qoyulub. Bu vəzifənin yerinə yetirilməsi istiqamətində Azərbaycan İlahiyyat İnstitutu mühüm rol oynayır.

**- Kifayət qədər həssas olan din sahəsində tədris prosesinin nəzarətdə olması nə qədər mühümdür?**

- Dini təhsilin dövlət nəzarətində olması önəmli və əhəmiyyətlidir. Din çox həssas məsələdir. Bütün dünya ölkələrində din hər zaman dövlətin nəzarətində saxlanılır. Eyni zamanda dini tədris elmi əsaslar üzərində öyrənilir, tədqiq olunur. Dinin tədrisində elmi metodlardan geniş istifadə edilir. Din elə bir sahədir ki, burada elmi əsaslarla yanaşma xüsusi önəm daşıyır. Əgər dini sahəni düzgün tənzimləmək, dini təhlükəsizliyimizi təmin etmək, qorumaq istəyiriksə, birmənalı olaraq dini təhsil dövlətin nəzarətində olmalıdır. Baş verən proseslərə nəzər yetirəndə din sahəsinin nə qədər həssas və vacib olduğunun şahidi olarıq.

**- Arzuolunmaz olayların təkrarlanmaması üçün dini sahədə hansı addımlar atılmalıdır?**

- Dini maarifləndirmə işi gücləndirilməlidir. Məscidlərimizə, onların fəaliyyətinə savadlı, bilikli kadrların cəlbi istiqamətində ciddi fəaliyyət ortaya qoymalıyıq. Bu, heç də kiçik məsələ deyil, olduqca böyük əhəmiyyət daşıyır. Hamı bu prosesə öz töhfəsini verməlidir. Maarifləndirmə, təbliğat, islahat işləri aparılmalı, qaydaları pozanlar "Dini etiqad azadlığı" haqqında qanunun tələbinə uyğun olaraq cəzalandırılmalıdır". Bu məsələlərə qeyri-ciddi yanaşmaq olmaz.

**İsmayıl Qocayev**



# Xarici ölkələrdə Azərbaycanla bağlı tarixi görüntülər var

Nəsiman Yaqublu: "Sırf bu işi bilən insanları tapmaq və onlara maliyyə ayıraraq xarici arxivlərə göndərmək lazımdır"



**Sosial şəbəkələrdə Azərbaycan Xalq Cümhuriyyətinin qurucu lideri Məhəmməd Əmin Rəsulzadənin 1918-ci ilin martında keçirilmiş Trabzon konfransında iştirakına dair maraqlı görüntülər paylaşılıb.**

Həmin vaxt M.Ə.Rəsulzadənin cəmi 35 yaşı olub. Bu konfransdan 2 ay sonra müsəlman şərqinin ilk modern dövləti istiqlaliyyətini bəyan edib. Xarici ölkə arxivlərində Cümhuriyyət qurucularının xeyli video və digər materialların olduğu iddia olunur. Həmin tarixi görüntü və sənədlərin ölkəmizə gətirilərək arxivləşdirilməli olduğu bildirilir.

**Mövzu ilə bağlı "Şərq"ə danışan BDU-nun Jurnalistika fakültəsinin professoru, tarixçi-alim Nəsiman Yaqublu belə bir arxivin vacibliyindən bəhs edib:** "Belə görüntülər əlbəttə ki, var. Lakin geniş axtarışların aparılması üçün Mədəniyyət Nazirliyi və dövlətin digər strukturları maddi, mənəvi dəstək verməlidir. Sırf bu işi bilən insanları tapmaq və onlara maliyyə ayıraraq xarici arxivlərə göndərmək lazımdır.

Mən özüm Türkiyə, Almaniya və Rusiyada səthi axtarışlar aparmışam və fotolara rast gəlmişəm.

Təkcə M.Ə.Rəsulzadənin deyil, Azərbaycanla bağlı çox sayda fotolar, görüntülər və sənədlər müxtəlif ölkələrin arxivlərində mövcuddur.

Azərbaycan tarixi ilə bağlı işlərin araşdırılmasına və sənədlərin ölkəmizə gətirilərək arxivlərdə yerləşdirilməsinə dəstək vacib məsələdir".

**Nihat Müzəffər**

# Müsəlman birliyi yox, məzhəbçi ideologiya yürüdürlər

Tural İrfan: "İranın buradakı təxribatçılarının isə dinlə əlaqəsi yoxdur"

**Rəsmi Bakı hər zaman çalışıb ki, Azərbaycan-İran münasibətləri qonşuluq və dostluq münasibətləri üzərində inkişaf etsin. İranla əlaqələr bəzən qarşıdurma həddinə çatsa da, məhz Azərbaycanın qonşuluq prinsiplərinə əsaslanan cəhdləri və təşəbbüsləri nəticəsində Tehranla əməkdaşlıq davam etdirilib.**

Xüsusən, dövlət başçılarının görüşündən sonra ölkələrarası əməkdaşlıqda yeni dövrün başlandığı deyilir. Nəzərə alaq ki, İranla Azərbaycan bir çox regional layihələrin birgə iştirakçısıdır. Cənub-Şimal nəqliyyat dəhlizi zəncirinin bir hissəsi İran üzərindən keçir. O cümlədən, Azərbaycanı Naxçıvanla birləşdirəcək yeni yol nəqliyyat kommunikasiya layihəsinin icrası ilə bağlı memorandum da imzalanıb. Təəssüf ki, bununla yanaşı dini müstəvidə Azərbaycan-İran arasındakı münasibətlərə xələl gətirmək istəyən qüvvələrin cəhdlərinə də rast gəlirik. İrandakı bəzi dairələr din pərdəsi altında gizlənərək Azərbaycana qarşı çirkin niyyətlərini həyata keçirməyə çalışırlar. Ölkəmizdə din-dövlət münasibətləri yüksək səviyyədə qurulsa da, İranın bəzi mollaları və təxribatçı televiziya kanalları Azərbaycanda guya dindarlara təzyiq edildiyini, həbsə atıldığını iddia edirlər. Reallığı əks etdirməyən hadisələri həqiqətmiş kimi təqdim edən İran mediası əsassız ittihamlarla rəsmi Bakını suçlayır. Hətta daha da irəli gedərək Azərbaycanı hədələyənlər də olur. Şübhə yox ki, düşmən qüvvələrin ölkəmizlə bağlı məkirli planları baş tutmayacaq. Çünki təhlükəli radikal meyillərin ölkəmizə daxil olmasının qarşısı həm din sahəsində fəaliyyət göstərən qurumlar, həm də dövlətin müvafiq orqanları tərəfindən vaxtında alınır.



**Son günlər cəmiyyətdə baş verən neqativ hadisələri "Şərq"ə təhlil edən ilahiyyatçı, Milli Cəbhə Partiyasının sədr müavini Tural İrfan deyib ki, İranın strateji mövqelərindən biri anti-Azərbaycan, anti-türk siyasətdir. Ekspert bildirib ki, Qarabağın və İranla həmsərhəd olan rayonların azad edilməsi, Zəngəzur dəhlizinin müzakirəsi İranda bərk narahatlıq yaradıb:** "Tehran qorxur ki, Azərbaycanın, Türkiyənin digər dünya dövlətləri ilə türk dünyası ilə əlaqələri daha da genişlənəcək. Tehran hökuməti İsraillə Azərbaycan əlaqələrinə də şiddətlə qarşı çıxır. İran bütün dünyada müsəlmanlar arasında məzhəbçi ideologiya yürüdür. Bir sistem yaradaraq, buna qarşı çıxan, qəbul etməyən müsəlmanları "kafir", "zalım" hesab edir. 44 günlük savaş zamanı və sonrakı mərhələdə İranın qısqanclığını, haqq işimizə nə qədər maneələr yaratdığını gördük. Biz qonşuluq, sülh, qarşılıqlı əlaqələr naminə bəzən bu məsələləri çox qabartmadıq. Lakin İran öz bəd niyyətindən geri durmur və hər fürsətdə Azərbaycanı ittiham edir. Prezident İlham Əliyevin mətbuat konfranslarından birində iranlı jurnalistlərin əsassız iddiaları, qərəzli sualları yadımızdadır. Cənab Prezident onların cavablarını verdi və öz mesajını göndərirdi. İran tərəfi əvvəlcə iddia edirdi ki, Qarabağ savaşında guya biz tərəfdən "terrorçular" vuruşub. İsrailin Zəngilanda baza yaratdığı kimi absurd açıqlamalar verirdilər. Ancaq bunlardan bir şey çıxmadığını gördükdə başqa yollara əl atdılar. Yəni daxildəki əlaltıları vasitəsi ilə qarışıqlıq yaratmaq, "şəriət dövləti" qurmaq fikirlərini yaymağa başladılar. Hamı gözəl bilir ki, Azərbaycanda dindarlara heç bir təzyiq yoxdur. İranın buradakı təxribatçılarının isə dinlə əlaqəsi yoxdur. Onlar dini alət kimi istifadə edərək inanclı kəsimdən öz məqsədləri naminə yararlanmaq istəyirlər. Radikal fikirlər səsləndirirlər, əhalini konstitusion quruluşa itaətsizliyə çağırırlar. Xaricdən və daxildən açıq-aşkar dövlət əleyhinə fəaliyyət göstərirlər".

**T.İrfan hesab edir ki, hüquq-mühafizə orqanları operativ işləməli, ilahiyyatçılar, din xadimləri susqunluq göstərməməlidir:** "Cəmiyyətə nüfuz etmiş təxribatçılar islah edilməlidir. İran özü milli fəalları asır, işgəncə verir, sürgün edir. Azərbaycan xalqı İranda heç bir hüquqa malik deyil. Öz dillərində danışmağa imkan vermirlər. Dini ayrı-seçkilik, məzhəbçilik baş alıb gedir. Ancaq Azərbaycandakı tolerantlıq dünyaya nümunədir. Bütün Qafqazın şeyxi, cənab Allahşükür Paşazadə İranın ittihamlarına yüksək səviyyədə cavab verməlidir. Çünki məlum tərəf dini əldə bayraq edir. Sonrakı mərhələdə isə siyasilər cavab verməlidir. Ermənistan Qarabağda məscidləri təhqir edəndə, dağıdanda İran niyə susurdu? İranın Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, ənənəvi dini etiqadına yad olan siyasiləşmiş şəxsləri qabağa verməsi, Azərbaycanda təxribata cəhd etməsi yolverilməzdir".

**İsmayıl**



# Şuşa da beynəlxalq diskussiya platformasına çevrildi

## IX Qlobal Bakı Forumunun əvəzsiz rolu dünyanın diqqətindədir

İsmayıl Qocayev

**IX Qlobal Bakı Forumunun iştirakçıları iyun ayının 19-da işğaldan azad olunmuş ərazilərə səfər ediblər. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulması və inkişafına baxış, eləcə də ərazilərin minalardan təmizlənməsi ilə tanışlıq məqsədilə həyata keçirilən səfərdə qonaqları yerli və xarici media nümayəndələri müşayiət ediblər. Forum iştirakçıları Şuşada panel müzakirələri aparıblar.**

"Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarının Yenidənqurulması və İnkişafına Baxışı" mövzusunda Şuşada keçirilən panelin moderatoru Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin olub. Serageldin deyib ki, azad edilmiş ərazilərin minalardan regionun inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Paneldə çıxış edən Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov deyib ki, Şuşada 2 mindən çox tarixi abidə var və erməni işğalı dövründə həmin abidələrin bir çoxu dağıdılıb. Aydın Kərimov bu abidələrin bir hissəsinin bərpa edilməkdə olunduğunu nəzərə çatdırıb. Şəhərdə aparılan yenidənqurma işlərindən danışan xüsusi nümayəndə qeyd edib ki, Şuşa elektrik enerjisi ilə tam təchiz olunub: "Şəhərin su təchizatının yaxşılaşdırılması, yeni su mənbələrinin tapılması istiqamətində işlər davam edir. Həmçinin şəhərin kanalizasiya sistemləri yenilənir. Şuşada yeni yollar və küçələr salınacaq". Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov isə bildirib ki, hazırda azad olunmuş ərazilərin minalardan təmizlənməsi davam edir. Emin Hüseynov azad olunmuş ərazilərdə ötən dövrdə aparılan quruculuq işlərindən danışıb. Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev qeyd edib ki, işğaldan əvvəl Zəngilanda 31330 insan yaşayıb, 9 məktəbəqədər təhsil müəssisəsi, 19 ibtidai məktəb fəaliyyət göstərib. İşğal dövründə Zəngilanın ekosisteminə də böyük zərbə vurulub. Onun sözlərinə görə, rayon günəş enerjisi və ekoturizm üçün böyük potensiala malikdir: "Bu ilin sentyabrında Zəngilan aeroportunun tikintisi də başa çatdırılacaq". E.Hüseynov qeyd edib ki, Azərbaycan meqa layihə həyata keçirir. Qarabağın bərpası misli görünməmiş böyük bir layihədir: "Bu böyük layihəni Azərbaycan dövləti heç bir yardım, kömək almadan öz imkanları hesabına həyata keçirir. Forumun nüfuzlu iştirakçılarını Azərbaycanın həyata keçirdiyi bu meqa layihə və bu layihənin idarə edilməsi barədə məlumatlandırdıq. Eyni zamanda azad olunmuş ərazilərin minalardan təmizlənməsi və bu işin nə qədər çətin olduğu barədə danışdıq. Hansı şəhərlərin baş planlarının hazırlanması, şəhər, qəsəbə və kəndlərin bərpası ilə bağlı qarşıda duran əsas hədəflər Forum iştirakçılarının diqqətinə çatdırıldı".



**Politoloq İlyas Hüseynov bildirib ki, dünyanın siyasi gündəliyin olan məsələlərin müzakirəsi baxımından IX Qlobal Bakı Forumunun mühüm əhəmiyyəti var.** Ekspertə görə, bu gün dünyada bir sıra qlobal əhəmiyyətli problemlər mövcuddur: "Qlobal təhlükəsizlik quruculuğunun yenidən nəzərdən keçirilməsi və sülh perspektivlərinin müzakirəsi nöqteyi-nəzərindən Bakıda keçirilən Forumun əvəzsiz rolu hiss olunmaqdadır. Buna görə də bütün dünyada Qlobal Bakı Forumuna böyük maraq göstərilir. Hazırkı dövrdə enerji təhlükəsizliyinə dair təhdidlər, Ukrayna müharibəsi, qlobal sağlamlığın təşviqi, qloballaşma və artan bərabərsizlik və digər fundamental təhdidlər hamını narahat edir. Bu baxımdan Bakıda 9-cu dəfə keçirilən Qlobal Forumu Davos İqtisadi Forumu və Münhen Təhlükəsizlik Konfransı ilə müqayisə etmək olar. Lakin qeyd edək ki, Davos İqtisadi Forumu və Münhenin Təhlükəsizlik Konfransı müvafiq olaraq iqtisadi və təhlükəsizlik məsələlərini əhatə etdirsə, Bakı Qlobal Forumu siyasi, qlobal və universal xarakter daşıyır, həmçinin beynəlxalq gündəmdə olan siyasi, iqtisadi, humanitar və digər məsələləri gündəmdə saxlayır. Forumun gündəliyinin geniş olması ilə yanaşı, iştirakçıların yüksək statusu da diqqətlə nəzərə alınmalıdır".

**İ.Hüseynov vurğulayıb ki, Azərbaycanın keçdiyi uğurlu yol, torpaqlarını işğaldan azad etməsi və Avropanın enerji təhlükəsizliyində aparıcı rola malik olması siyasi mütəxəssisləri və ekspertləri yaxından maraqlandırır:** "Forumda dünyada mövcud olan ən aktual məsələlər fəal müzakirə olundu. Eyni zamanda, problemlərdən çıxış yolları axtarıldı. Həmçinin, dünyada böyük nüfuza malik olan şəxslərin müxtəlif təklif və tövsiyələrlə çıxış etməsi də müşahidə olundu. Forumda dəyərli təklifləri dinləmək və icra etmək üçün yaxşı imkanlar formalaşdırılır. Son dövrlər Bakı ilə yanaşı, mədəniyyət paytaxtımız Şuşa da beynəlxalq diskussiya platformasına çevrilib. Tanınmış ictimai-siyasi xadimlərin, aparıcı ekspertlərin Forumda iştirakı onu göstərir ki, IX Qlobal Bakı Forumuna maraq çox böyükdür. Dünyanın böyük transformasiyaya qədəm qoyduğu bir dövrdə Azərbaycanda qlobal əhəmiyyətli məsələlər müzakirə edilir".

# Medianın İnkişafı Agentliyi fərdi jurnalist müsabiqəsi elan edir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Medianın İnkişafı Agentliyi fərdi jurnalist müsabiqəsi elan edib.**

**Agentlikdən "Şərq"ə verilən məlumata görə, müsabiqədə iştirak etmək üçün müraciət və ona əlavə edilən sənədlər elektron formada və ya kağız daşıyıcıda Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə təqdim edilir.**

Müsabiqənin əsas şərti müsabiqə elan olunan gündək son 3 aylıq dövr ərzində dərc olunmuş və ya yayımlanmış materialı təqdim etməkdir.

Müsabiqəyə təqdim edilən materiallar:

Jurnalist müsabiqə elan olunan günədək son 3 (üç) aylıq dövr ərzində çap mediası və onlayn media subyektində dərc olunmuş hər hansı bir yazısını aşağıdakı nominasiyalardan yalnız biri üzrə müsabiqəyə təqdim edir:

- *ən yaxşı reportaj;*
- *ən yaxşı ictimai-siyasi təhlil;*
- *ən yaxşı sosial-iqtisadi təhlil;*
- *ən yaxşı müsahibə;*
- *ən yaxşı mədəniyyət materialı;*
- *ən yaxşı köşə yazısı;*
- *ən yaxşı jurnalist araşdırması;*
- *ən yaxşı oçerk.*

Jurnalist müsabiqə elan olunan günədək son 3 (üç) aylıq dövr ərzində audiovizual media subyektində yayımlanmış və həcmi (xronometrajı) ən çoxu 5 (beş) dəqiqə olan süjetini aşağıdakı nominasiyalardan yalnız biri üzrə müsabiqəyə təqdim edir:

- *ən yaxşı ictimai-siyasi reportaj;*
- *ən yaxşı iqtisadi reportaj;*
- *ən yaxşı sosial reportaj;*
- *ən yaxşı mədəniyyət reportajı;*
- *ən yaxşı idman reportajı.*

**Qiymətləndirmə:**

Materialların qiymətləndirilməsi Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən cəlb edilmiş 3 (üç) müstəqil ekspert tərəfindən həyata keçirilir.

**Mükafatlandırma:**

Müsabiqənin yekununda yazılar üçün nəzərdə tutulmuş nominasiyaların hər biri üzrə 5 (beş) jurnalist, süjetlər üçün nəzərdə tutulmuş nominasiyaların hər biri üzrə isə 2 (iki) jurnalist və 2 (iki) operator qalib elan edilir və mükafatlandırılır.

Müsabiqəyə müraciət qəbulu 01 iyul 2022-ci il saat 18:00-dək davam edəcəkdir.

*MEDİA - fərdi jurnalist müsabiqəsinin keçirilməsi qaydaları ilə buradan tanış ola bilərsiniz.*

# "Ukraynanı dəstəkləməyə davam edəcəyik"

## Madrid sammitindən əvvəl NATO və Aİ birlik mesajı verib

**NATO-nun Baş katibi Yens Stoltenberq Avropa İttifaqı (Aİ) Komissiyasının sədri Ursula fon der Lyayen ilə görüşüb. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, Stoltenberq Madrid sammitindən əvvəl Ukrayna və Avropanın müdafiəsi mövzusunda birlik və əməkdaşlıq mesajı verib.**

NATO-nun baş katibi NATO-nun Brüsseldəki mənzil-qərargahında keçirilən görüşdən sonra Twitter hesabında açıqlama yayıb.

O, "NATO və AB, Rusiyanın amansız müharibəsinə qarşı özünü müdafiə etməyə davam edən ukraynalılarla birlikdədir. Biz uzunmüddətli perspektivdə yaxın tərəfdaşımız Ukraynanı dəstəkləməyə davam edəcəyik" deyə mesajında bildirib.

Avropa İttifaqı (Aİ) Komissiyasının sədri Ursula fon der Lyayen də Ukraynaya dəstəyin uzunmüddətli perspektivdə davam edəcəyini açıqlayıb.



O, həmçinin 29-30 iyun tarixlərində Madriddə keçiriləcək NATO Sammitinə hazırlıq iclası keçirdiklərini ifadə edərək, "Avropa İttifaqı - NATO əməkdaşlığı hərbi mobilliyə qədər Avropanın müdafiəsini gücləndirməyə davam etmək üçün çox vacibdir. Biz Ukraynanı dəstəkləyirik, birlikdəyik" deyə vurğulayıb.

**Turan**



# Əli Məsimli məmur monopoliyasından danışdı

## "Yaranan inflyasiya Azərbaycan xalqına böyük ziyan vurur"

**2022-ci ilin dövlət büdcəsinə dəyişiklik Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, o cümlədən Əmək və sosial siyasət komitələrinin birgə iclasında müzakirəyə çıxarılıb. İclasda parlament komitələrinin üzvləri, hökumət nümayəndələri iştirak ediblər.**

Qeyd edək ki, 2022-ci il dövlət büdcəsinin gəlir və xərcləri artırılır. 2022-ci il üzrə yenidən baxılmış dövlət büdcəsinin gəlirləri təsdiq olunmuş əvvəlki göstəricidən 8,9 faiz çoxdur. Yenidən baxılmış dövlət büdcəsinin gəlirlərinin 53,2 faizi neft sektorunun, 46,8 faizi qeyri-neft sektorunun payına düşür. Bütövlükdə dövlət büdcəsi gəlirlərinin tərkibində qeyri neft gəlirlərinin xüsusi çəkisi təsdiq olunmuş göstəriciyə nisbətən 1,6 faiz-bənd artaraq 46,8 faiz təşkil edəcək. Həmçinin, dövlət büdcəsində neftin qiymətinin 85 dollar nəzərdə tutulması təklif edilir. Xatırladaq ki, 2022-ci il üçün dövlət büdcəsində neftin qiyməti 50 dollar götürülmüşdü.

**"İnflyasiya 12,5 faiz səviyyəsində proqnozlaşdırılır"**

**Maliyyə naziri Samir Şərifov bildirib ki, 2022-ci ilin ötən 5 ayının makroiqtisadi göstəriciləri və dövlət büdcəsinin icrası üzrə əldə edilmiş müsbət dinamika nəzərə alınmaqla ölkənin makroiqtisadi proqnozlarına yenidən baxılıb.** Nazir qeyd edib ki, cari ilin sonuna ümumi daxili məhsulun (ÜDM) nominal ifadədə 115,4 milyard manata, qeyri-neft ÜDM-nin nominal ifadədə 65,7 milyard manata qədər artacağı gözlənilir. Həmin dövr ərzində orta illik inflyasiya isə 12,5 faiz səviyyəsində proqnozlaşdırılır: "Cari il üçün qeyri-neft büdcə kəsiri üzrə yuxarı hədd 27,5 faiz səviyyəsində nəzərdə tutulub. Dövlət və icmal büdcələrə dəyişikliklər zamanı dövlət borcu üzrə hədəf göstəriciləri üzrə də büdcə qaydasına uyğun olaraq müəyyənləşdirilmiş 20 faiz həddinə də tam riayət olunur". Samir Şərifov bəyan edib ki, Neft Fondundan dövlət büdcəsinə transfert 1 milyar manatdan çox azaldılır: "Həmin gəlirlər əlavə neft gəlirləri hesabına əvəzləşdirilir. Bu da Dövlət Neft Fondunun aktivlərinin daha da artımını şərtləndirəcək".

**"Pensiyaçılar üçün təsis edilən vəsait 86 milyon manat artırılıb"**

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov bildirib ki, əmək pensiyaçılarının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı Prezidentin fərmanı və sərəncamlarına əsasən, pensiyaçılar üçün təsis edilən vəsait 86 milyon manat artırılıb. O deyib ki, ümumi şərtlərlə pensiya alan 1,1 milyon pensiyaçının ödənişləri indeksasiya olunub. Əlavə olaraq 200 manat məbləğində maddi yardım müəyyən edilib: "Xüsusi şərtlərlə pensiya alan pensiyaçıların ödənişləri isə 10 faiz indeksasiya olunub. Bu, sosial dəstək tədbirlərinin ümumi maliyyə tutumu 440 milyon manat məbləğindədir. Bu məbləğin 86 milyon manatı dövlət büdcəsi hesabına, 354 milyon manatı isə Fondun əlavə gəlirləri və daxili büdcəsi hesabına qarşılanacaq. Xüsusi olaraq qeyd olunmalıdır ki, 2018-ci illə müqayisədə əhaliyə ödənişlərin 1,8 milyard manat artmasına baxmayaraq, 2022-ci ildə transferdən gəlirlərin payı 2017-ci illə müqayisədə 16 faiz azalıb. Cari ildə Fondun xərcləri gəlirlərinə bərabər olaraq proqnozlaşdırılıb".

**"791 milyon manat pensiya vəsaitinin mənimsənilməsinin qarşısı alınıb"**

**Anar Kərimov qeyd edib ki, pensiya sistemində aparılan sağlamlaşdırma tədbirləri, habelə məhkəmə qərarlarına nəzarətin gücləndirilməsi nəticəsində mənimsənilməsinin qarşısı alınıb:** "Vəsaitin həcmi indeksasiya standartları tətbiq edilmədən 711 milyon manat, indeksasiya tətbiq edilərsə, 791 milyon manat təşkil edir. 1 iyun 2022-ci il tarixli operativ məlumatlara əsasən, pensiyaların orta aylıq məbləği təqribən 364 manat təşkil edir. Bu da ilin əvvəli ilə müqayisədə 10 faiz, keçən ilin analoji dövrü ilə müqayisədə isə təqribən 11 faiz artım deməkdir".

**"Azərbaycanda anti-inflyasiya tədbirləri görülsə də, inflyasiyanın səviyyəsi artır"**

**2022-ci ilin dövlət büdcəsinə dəyişiklik layihəsinin müzakirəsi zamanı çıxış edən millət vəkili Əli Məsimli məmur monopoliyasından danışıb.** Nazirin sözlərinə diqqət çəkən deputat Azərbaycanda inflyasiyanın 12 faizdən yüksək olduğunu deyib: "Azərbaycanda idxal inflyasiyası hərtərəfli nəzərə alınıb. İdxal inflyasiyası nəzərə alınsa da, ölkəmizdə məmur monopoliyasından yaranan inflyasiyanı hökumət üzvləri nəzərə almır. Monopoliyadan yaranan inflyasiya Azərbaycan xalqına böyük ziyan vurur. Məmur monopoliyası ilə qiymətin artırılmasının hər faizinə görə ildə Azərbaycanda əhalinin ailə büdcəsinə 400 milyon manat ziyan dəyir. Bu artım bir neçə faiz olanda isə həmin ziyan milyardlarla manat səviyyəsinə qalxır". Deputat qeyd edib ki, Azərbaycanda anti-inflyasiya tədbirləri görülsə də, inflyasiyanın səviyyəsi artır.



## "İldə əhalinin ailə büdcəsinə 400 milyon manat ziyan dəyir

**Komitə sədrindən təklif: "Maaşlar artsın"**

**Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib ki, vətəndaşların minimum əməkhaqqı ilə (300 manat) ictimai işlərə cəlb edilməsi doğru deyil:** "Bu, həmin vətəndaşlar üçün cəlbedici deyil. Kəmiyyətdən keyfiyyətə keçmək istəyiriksə, ictimai işlərə cəlb olunan insanların sayını azaltmalı, onların əməkhaqlarının artırılması istiqamətində düşünməliyik. Yəqin ki, bu, növbəti ilin büdcəsinin müzakirəsi zamanı nəzərə alınacaq".

**"İcra başçıları vəsaitləri mənimsəyir"**

**Millət vəkili Vahid Əhmədov bildirib ki, sahibkarlığın inkişafına ayrılan vəsaitlərin əhaliyə çatmasında, xərclənməsində ciddi problemlər var:** "Həmin vəsaiti icra başçılarının mənimsəmələrinə yol verməmək lazımdır. Monitorinq keçirmək lazımdır ki, həmin vəsaitin insanlara çatması təmin edilsin".

**"Azərbaycan tarixində bir ilk..."**

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili deyib ki, tarixdə ilk dəfə Azərbaycanın neft və qaz ixracından əldə etdiyi valyuta gəlirləri bərabərləşməkdədir: "Cari ilin ilk 5 ayında neft ixracından 3,8 milyard dollar, qaz ixracından 3,5 milyard dollar gəlir əldə olunub".

**İsmayıl Qocayev**

# Tokayev Kremlin iddialarına ağır zərbə vurdu

## Sankt-Peterburq Forumu Rusiyanın nəinki dünyadakı, hətta postsovet məkanındakı mövqelərinin təməlindən laxladığını bir daha təsdiqlədi

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Rusiyada keçirilən ”Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu”nda qondarma ”Donetsk və Luqansk respublikaları”nı açıq şəkildə tanımaqdan imtina edib. Tokayev Rusiya Prezidenti Vladimir Putinin çıxış etdiyi tədbirdə fəxri qonaq kürsüsündə olub və Kreml rəhbərindən sonra çıxış edib.**

Daha sonra tədbirə moderatorluq edən ”Russia Today”in rəhbəri Marqarita Simonyan hər iki prezidentə suallar ünvanlayıb. Tokayev bəzi məsələlərdə Rusiya ilə fikir ayrılıqlarının olduğunu etiraf edib. Buna misal olaraq Qazaxıstanın ”müstəqiliyini” elan etmiş ”DXR və LXR”i tanımadıqlarını deyib. Vurğulayıb ki, müasir beynəlxalq hüquq BMT nizamnaməsidir. Nizamnamədə iki əsas prinsip var: ”Müasir dövrdə bu iki prinsip bir-birinə ziddiyyətə gəlib çıxıb. Bunlar dövlətlərin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etmə prinsipləridir. Birləşmiş Millətlər Təşkilatının yaradıcılarının ataları görünür, həmin vaxt bu məqamı nəzərə almayıblar. Mümkündür ki, bunu bilərəkdən güzəşt kimi nizamnaməyə daxil ediblər. Əlbəttə ki, bu prinsiplər nə qədər bir-birinə zidd olsalar da, bununla bağlı fərqli anlayışlar mövcuddur. Bir kateqoriya deyir ki, dövlətlərin ərazi bütövlüyü müqəddəsdir. Digər kateqoriya düşünür ki, bu və ya digər dövlətin ərazisində olan hər hansı xalq öz müqəddəratını təyin etmə hüququna malikdir, daxil olduğu dövlətin tərkibindən çıxmaq hüququna malikdir. Əgər xalqların öz müqəddəratının təyin etmə prinsipi həyata keçirilərsə, hazırda BMT-yə daxil olan 193 dövlətin yerinə 500-600-dən çox dövlət yaranar. Əlbəttə, bu, xaos olardı. Ona görə də, bu prinsiplə biz nə Tayvanı, nə Kosovonı, nə Abxaziyanı, nə də Cənubi Osetiyanı tanımırıq. Bu da sizin açıq sualınıza açıq cavab”. Tokayev həmçinin, Putinin yanında Dövlət Dumasının deputatlarından və Rusiya təbliğatçılarından şikayət edərək, onları ölkələr arasında nifaq salmaqda ittiham edib. Bununla yanaşı, Qazaxıstan prezidenti Rusiyanın ”Aleksandr Nevski” ordenindən imtina edib. Bildirilir ki, Rusiya tərəfi Tokayevi Aleksandr Nevski ordeni ilə təltif etməyi təklif edib. Lakin o, bundan imtina edib. Tokayev prezidentlik səlahiyyətləri bitənə qədər xarici mükafatları qəbul etməmək qərarına gəlib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov isə bildirib ki, Tokayevi ”Aleksandr Nevski” ordeni ilə təltif etmək planları olmayıb. Qeyd edək ki, ”Nevski” ordeni 1942-ci ildə təsis edilib və Rusiya ilə əməkdaşlığın inkişafındakı xidmətlərinə görə görkəmli xarici xadimlərə verilir.



*"Tokayev Simonyan və onun kimilərin nə üçün panelə moderatorluq etdiyinin fərqində olduğunu ustalıqla dilə gətirdi"*

Tokayevin Forumda səsləndirdiyi bəyanatlardan sonra Rusiya Qazaxıstana qarşı addımlar atmağa başlayıb. İlk olaraq neftinin ixrac üçün daşınmasına məhdudiyyətlər qoyulub. Qazaxıstandan gələn neftin ixracı Novorossiysk limanında dayandırılıb. Rusiya limanına ildə 67 milyon ton neft nəql edən Xəzər Boru Kəməri Konsorsiumunun akvatoriyası bağlanılıb. Maraqlıdır ki, neftin nəqlinin dayanması Tokayevin Sankt-Peterburqa səfəri fonunda baş tutub. Rusiya Dumasının MDB İşləri Komitəsinin rəhbəri Konstantin Zatulin isə açıq formada Tokayevi tənqid edib və açıqlamalarını yanlış sayıb. Zatulin Qazaxıstana Ukraynada həyata keçirdikləri ”tədbirləri” misal gətirib.

**Siyasi şərhçi Elçin Mirzəbəyli ”Şərq”ə bildirib ki, Sankt-Peterburq ”Beynəlxalq İqtisadi Forumu” Rusiyanın nəinki dünyadakı, hətta postsovet məkanındakı mövqelərinin təməlindən laxladığını bir daha təsdiqlədi. Analitikə görə, Forum ”Böyük Avrasiya” blefinə inananları xəyal qırıqlığına uğratdı:** ”Foruma Qazaxıstan prezidentindən başqa heç bir liderin qatılmaması, Rusiyanın hələ də rəsmi olaraq terror təşkilatı hesab etdiyi ”Taliban”ın və separatçıların ümidinə qalması, ən azından sözügedən tədbirin iflası sayıla bilər. Doğrudur, Forumda Ermənistan prezidenti də iştirak edirdi. Lakin Ermənistanda prezident simvolik fiqurdur və ölkənin lideri Baş nazir Nikol Pasinyan sayılır. Simonyanın moderator olaraq təsadüfən seçildiyini düşünmürəm. Bu, Rusiya siyasi elitasının ənənəvi üslubunda bir davranış idi. Kreml başbilənləri, bir qayda olaraq öz ”böyüklüklərini” nümayiş etdirmək üçün belə ”metodlardan” yararlanmağı xoşlayırlar. Simonyanın Tokayevi qıcıqlandırmaq və aşağılamaq üçün ”secildyinə” zərrə qədər də şübhə etmirəm. Tokayev Simonyan və onun kimilərin nə üçün panelə moderatorluq etdiyinin fərqində olduğunu ustalıqla dilə gətirdi. Mövqeyini rusiyalı həmkarının diqqətinə çatdıra bildi. Bununla kifayətlənməyib Abxaziya, Şimali Osetiya, Kosova və Ukrayna ərazisində yaradılan qondarma qurumları tanımadıqlarını bəyan etməklə Kremlin iddialarına və nüfuzuna olduqca ağır zərbə vurdu. Bütün bunları Putinin gözünün içinə baxaraq, Rusiyanın bütün siyasi və iqtisadi elitasının iştirak etdiyi tədbirdə dedi”.

**E.Mirzəbəyli qeyd edib ki, Rusiya prezidentinin çıxışı isə, ümumiyyətlə anlaşılan deyildi:** ”Qızıl milyard” iddiası fantastik geosiyasi dedi-qodulardan ibarətdir və bütün dünyada qəhqəhə ilə qarşılanır. Bu dedi-qodunun Rusiya kimi bir dövlətin başçısı tərəfindən təsdiqini tapmış reallıq kimi dilə gətirilməsi şimal qonşumuzda ciddi arqument çatışmazlığı sindromunun və ideoloji boşluğun yaşandığını sübuta yetirir”.

**İsmayıl Qocayev**



# Forumda Azərbaycan öz strategiyasını izah edib

## “Ölkəmizin əsas məqsədi bölgədə sülh, stabillik mühiti yaratmaqdır

**İyunun 16-da işə başlamış ”Qlobal dünya nizamına təhdidlər” mövzusunda beynəlxalq məsələlərin müzakirə edildiyi IX Qlobal Bakı Forumu Şuşa şəhərində yekunlaşıb. Qeyd edək ki, Forum Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və ”Nizami Gəncəvi” Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə işə başlayıb.**

Forumun iştirakçıları Şuşada panel müzakirələri aparıblar. Müzakirələrdən sonra qonaqlar Şuşa şəhəri ilə tanış olublar. Forumun iştirakçılarına işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa işləri, bu ərazilərin minalardan təmizlənməsi barədə məlumat verilib.

Xatırladaq ki, forum zamanı çoxsaylı mövzular müzakirə edilib və hələ də sosial mediada bu forumun bizə nə dəyişikliklər gətirəcəyi sualı dolaşır.

**Forumun əhəmiyyətini yüksək dəyərləndirən millət vəkili Asim Mollazadə ”Şərq”ə bildirib ki, bu kimi görüşlər o zaman həyata keçirilir ki, dünyada çox ciddi qlobal problemlər mövcud olur.**

**Deputatın sözlərinə görə, Forumda əsasən pandemiyadan sonra və müharibə zamanı beynəlxalq təşkilatların üzərinə düşən vəzifənin yetərincə bacarmadığı mövzusu müzakirə olunub:** ”Ölkəmizin əsas məqsədi bölgədə sülh, stabillik mühiti yaratmaqdır. Forum zamanı Azərbaycan tərəfdaşlığa və əməkdaşlığa yönəlmiş strategiyasını izah edib. Azərbaycanın həyata keçirdiyi strateji enerji, nəqliyyat layihələri bunun üçün münbit şərait yaradır. Qarşılıqlı maraqlar əsasında iqtisadiyyat və ticarətin inkişafına dair etdiyimiz təkliflər forum iştirakçıları tərəfindən müsbət qarşılanıb. Xatırladım ki, pandemiya dönəmində Azərbaycan BMT-nin Qoşulmama Hərəkatının rəhbəri kimi çətin vəziyyətdə olan ölkələrə kömək etdi. Bu əhval-ruhiyyə Bakı Forumunda da əsas götürülüb”.

**Nihat Müzəffər**



# "Ümumi sözlər deyib geri qayıdacaq"

## Elxan Şahinoğlu: ”Lavrovun Bakı səfəri heç vaxt faydalı olmayıb”

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov iyunun 23-də Bakıya səfər edəcək. Lavrovun Prezident İlham Əliyev və azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşəcəyi deyilir. Məlumat üçün bildirək ki, Rusiyanın Ukraynaya qarşı apardığı işğalçı müharibəyə görə Lavrovun adı sanksiya tətbiq olunanlar siyahısındadır.**

Lavrov bu səbəbdən Avropa ölkələrinə səfər edə bilmir. Hətta onun təyyarəsi Rusiyaya dost ölkə hesab edilən Serbiya paytaxtı Belqrada enə bilməmişdi. Sergey Lavrov iyunun əvvəli Türkiyəyə səfər etmiş, oradan İrəvana keçmişdi. İndi növbə Bakınındır.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu ”Şərq”ə bildirib ki, Lavrov İrəvandan sonra Bakıya səfər etməklə Ermənistanla Azərbaycan arasında balansı qoruduğuna işarə edir. Ekspert bildirib ki, Lavrov xarici işlər naziri olduğu müddətdə Bakıya dəfələrlə gəlib:** ”Ancaq bu səfərlər faydalı olmayıb. Çünki Kreml əvvəlkitək Cənubi Qafqazı təsiri altında saxlamaq istəyir, bölgə ölkələri ilə bərabərhüquqlu əməkdaşlığı qəbul etmir. Kremlin məntiqinə görə, Cənubi Qafqaz ölkələri xarici və təhlükəsizlik siyasətlərində Rusiyanın maraqlarını nəzərə almalıdırlar. Rusiyanın Ukraynada apardığı işğalçı müharibə Kremlin hərbi və diplomatik resurslarını bu istiqamətdə xərcləməyə məcbur edir. Buna baxmayaraq, Kreml görüntü yaratmaq istəyir ki, Moskva o biri istiqamətləri də unutmur - Cənubi Qafqaz, Mərkəzi Asiya və Suriya onun üçün vacibdir. Halbuki, Rusiya bütün bu bölgələrdə qarşısında Türkiyə, Avropa İttifaqı və ABŞ-ı görür, hətta Çin belə Rusiya ilə tərəfdaş olmasına baxmayaraq, Rusiyadan yan keçən nəqliyyat dəhlizi ilə daha çox mal daşımağa başlayıb. Bu vəziyyət Kremli narahat etməyə bilməz”.

**E.Şahinoğluya görə, Sergey Lavrov Bakıda Ermənistanla sərhəd məsələsini, sülh sazişini və dəhlizin açılmasını müzakirə edəcək:** ”Bu istiqamətlərdə il yarımdır heç bir irəliləyiş yoxdur. Təsadüfi deyil ki, Prezident İlham Əliyev IX Bakı Qlobal Forumunda çıxışı zamanı Ermənistanın baş nazirinin 2020-ci il 10 noyabr bəyanatına zidd olaraq dəhlizin açılmasını ləngitdiyini, yenidən ”Dağlıq Qarabağın statusu” mövzusundan daşıdığını bildirdi. Kreml öz vasitəçiliyi ilə qəbul edilən həmin bəyanatın yerinə yetirilməsini və İrəvanı doğru yola gətirmək üçün heç nə etmir. Lavrov İrəvanda olduğu zaman 2020-ci il 10 noyabr bəyanatındakı bəndlərin yerinə yetirilməsi vacibliyi barədə heç nə demədi. Lavrov Bakıda da ümumi sözlər deyib geri qayıdacaq. Bunun fonunda bölgədə Türkiyə, Avropa İttifaqı və ABŞ fəallaşır. Ankara, Brüssel və Vaşinqtondan Azərbaycana hər həftə rəsmilər və diplomatlar gəlir, əməkdaşlığın inkişafı yollarını müzakirə edirlər. Rəsmi Bakı Türkiyə ilə yanaşı ABŞ və Avropa İttifaqı ilə əməkdaşlığın inkişafında maraqlıdır. Bölgənin zəif halqası Ermənistandır. İlham Əliyevin sözlərinə görə, 10 noyabr bəyanatını yerinə yetirməyən İrəvan Gürcüstanın vasitəçiliyinə də neqativ yanaşır. Halbuki, Cənubi Qafqazın 3 dövləti öz aralarında dialoqa və əməkdaşlığa başlasalar Rusiyanın timsalında vasitəçiyə ehtiyac olmayacaq. Bu isə Kremlin maraqlarına cavab vermədiyinə görə İrəvanın əli ilə sülh quruculuğuna mane olmağa çalışır. Lavrovun səfəri məhz bu siyasətə xidmət edir”.

**İsmayıl Qocayev**

# Tehran məntiqin qarşısında baş əyir

## İran iqtisadi fəallığını artırmaqla Zəngəzur dəhlizindən fayda götürə bilər

**Ermənistan parlamentinin sədri Alen Roberti Simonyan İrana səfər edib. O, İran Prezidenti İbrahim Rəisi də daxil olmaqla bir sıra yüksək vəzifəli şəxslərlə görüş keçirib. İbrahim Rəisi Simonyanla görüşündə belə bir ifadə işlədib: ”İran Hind okeanı və Fars körfəzi, Qara dənizdən Avropaya qədər uzanan regionda yerləşən bölgə xalqları arasında yaxınlaşmanın gücləndirilməsi, sülh və rifahın təməllərini formalaşdıran yüksək geopolitik potensiala malikdir”.**

Rəisi burada Fars körfəzi-Qara dəniz nəqliyyat koridoru mövzusuna işarə edir və bu dəhlizlə özünün proseslərdəki rolunu artırmağa çalışan təşəbbüsləri ortaya qoyur. İranın Xarici işlər naziri Hüseyn Əmir Abdullahian iranlı spikerlə görüşündə həmin məsələni daha aydın ifadə edib. Əslində İran Azərbaycan və Türkiyənin başlatdığı Zəngəzur dəhlizinin texniki-iqtisadi tərəflərinə qarşı dirəniş göstərməyib. Tehranın həzm etmədiyi məsələ bu dəhlizin sərhəd dəyişikliyi kontekstində reallaşma imkanlarıdır. Buna görə də İran bir ara Fars körfəzi-Qara dəniz nəqliyyat dəhlizi layihəsini Ermənistanla əl-ələ verərək ayaqda saxlamağa çalışdı. Ancaq bunun üçün lazım olan təminatı toplaya bilmədi.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə bildirib ki, Azərbaycanın regionda sürətlə böyüyən gücü İranın planlarını dəyişdirməyə vadar etdi. Onun sözlərinə görə, İranın həmin dəhliz ideyası Zəngəzur dəhlizinə inteqrasiya oluna bilər:** ”2021-ci ilin dekabrında İran, Azərbaycan və Gürcüstan Fars körfəzini Qara dənizlə birləşdirən tranzit marşrutunun işə salınacağı bildirildi. Razılaşmaya əsasən, İran Astarasından Azərbaycana və daha sonra Gürcüstan limanlarına, oradan isə Bolqarıstana və Şərqi Avropanın digər ölkələrinə sınaq tranzit həyata keçiriləcək. 2022-ci ilin martında Azərbaycanla İran arasında Şərqi Zəngəzurla Naxçıvanı birləşdirən nəqliyyat xəttinin çəkilməsi üçün razılıq əldə edildi. Zəngəzur dəhlizinə beynəlxalq marağın artması və Çinin də burada maraqlarının olması həmin layihəni daha cəlbedici edir. Orta dəhliz imkanlarını artırır və onu böyük investisiyalara hazır vəziyyətə gətirir. Nəzərə almaq lazımdır ki, İran layihəsinin ilkin nüsxəsində yer alan Ermənistan, Gürcüstan, Bolqarıstan və Yunanıstan bu marşrut üçün pul xərcləməkdə xəsislik edəcəkdi. Sanksiyaların tətbiq edildiyi İran isə digər ölkələrin yerinə vəsait ayırmaq gücündə deyildi. Yəni layihənin təşəbbüskarının geosiyasi vəziyyəti, maliyyə problemləri həmin nəqliyyat dəhlizinin gerçəkləşməsinə imkan vermədi”.



*A.Kərimov vurğulayıb ki, İran Türkiyəni də prosesə cəlb etmək istəyirdi. Lakin iki ölkə arasındakı rəqabət və maraq toqquşmaları Ankara-Tehran müştərək marağını yarada bilmədi:* ”İran öz layihəsinin perspektivsiz və risklərlə zəngin olduğunu dərk etdi və nisbətən yumşaldı. Rəisinin Simonyana həmin dəhlizi xatırlatması, Zəngəzur dəhlizinə inteqrasiya kontekstində dəyərləndirilməlidir. Hərçənd, bundan sonra da Tehran Zəngəzur dəhlizinə rəqib kimi Fars körfəzi-Qara dəniz xəttini tezis kimi ortalığa atacaq. Rəisi açıqlaması ilə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında İranın iştirak payına da toxunub. Təbii ki, İranın sülhyaratma təşəbbüsündə effektiv iştirakını gözləməyə dəyməz. İran yalnız Zəngəzur dəhlizi məntiqində iqtisadi fəallığını artırmaqla özünə fayda götürə bilər. Nəticə etibarı ilə İranla Ermənistan Azərbaycana qarşı kollektiv maraq yarada bilməyəcək. Fars körfəzi-Qara dəniz layihəsi Zəngəzur dəhlizinin məntiqində əriyib gedəcək. Amma İran həmin layihənin aktuallığından imtina etməyəcək. Azərbaycanla İran iqtisadi prioritetlərini təkmilləşdirəcək”.

**İsmayıl Qocayev**

# Yeni planın qarşısını almalıyıq

## Revanşistlər Laçın şəhərini təhvil vermək istəmir

**”Ermənistanda revanşistlər Laçın şəhərinin Azərbaycana təhvil verilməsinə qarşı planlar hazırlayır”. Bu barədə ”Şərq”ə açıqlamasında siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik vurğulayıb ki, ”Azadlıq hərəkatı” adlı radikal təşkilatın üzvləri Laçının təhvil verilməsinin qarşısını almağa çalışırlar. Bunu necə edəcəklərinin detallarını isə açıqlamırlar:**

”Müxtəlif aksiyaların təşkili ilə Laçının təhvil verilməsini müəyyən müddətə təxirə salmağı düşünürlər.



Hesab etmək olar ki, erməni revanşistlər müxtəlif aksiyalarla Paşinyana təzyiq etmək, onu üçtərəfli razılaşmanın 6-cı bəndini pozmağa məcbur etmək istəyirlər. Lakin iki məqam təxribatın Laçında ola biləcəyi versiyasını ön plana çıxarır. Hərəkatın üzvlərinin Laçının ”müdafiəsində” fəal iştirak edəcəyi deyilir. İkincisi isə atacaqları addımların detalları açıqlanmır. Mümkündür ki, erməni təxribatçılar Laçının hazırda rus sülhməramlılarının nəzarətində olan bölgələrində silahlı dəstələr yaradıb və alternativ marşrutun istifadəyə verilməsindən sonra hərəkətə keçəcəklər. Bu prosesdə Rusiyanın da mümkün maraqları var. Ermənistan tərəfinin məlumatları yeni marşrutun daha əlverişsiz olduğu yönündədir. Bu, ruslara sərf etmir. Çünki yeni yol ermənilərin Qarabağa gediş-gəlişini çətinləşdirə, əhalinin bölgədə qalmaq perspektivini daha da azalda bilər”.

**Ekspert vurğulayıb ki, Bakı ”Zəngəzur və Laçın dəhlizi eyni rejimlə işləməlidir” tələbini yeni marşrutun istifadəyə verilməsindən sonra aktuallaşdıra bilər:** ”Moskva Laçın şəhərinin Azərbaycana təhvil verilməsi məsələsini ”üçtərəfli razılaşmalarda irəliləyişlər”dən biri kimi Bakıya qarşı kart kimi istifadə etməyi planlaşdırır. İstisna deyil ki, bu kartı hələki əlindən çıxarmaq niyyətində deyil. ”Azadlıq hərəkatı”nın üzvlərinin Laçının ”müdafiəsi”ndə iştirakı” doğrudursa, bunun rus sülhməramlılarının icazəsi olmadan etmədikləri də bəllidir. Paşinyanın da burada öz oyununun olması ehtimalı nəzərdən qaçmamalıdır. Rəsmi İrəvanın ”Azadlıq hərəkatı”ndan ikinci ”Sasna srer” hadisəsi düzəldə bilməsi mümkün versiyalardan biridir”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**



# Azərbaycanda qanun hamı üçün eynidir

## Ölkəmizdə bütün dini etiqadların azadlığı ən ali səviyyədə qorunur

**"Diqqətinizi cəlb etmək istədiyim digər bir məsələ Azərbaycanda yaşayan ermənilərlə bağlıdır. Mənim, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın Baş naziri Paşinyanın Brüsseldə baş tutmuş üçtərəfli görüşümüzün nəticələrinə dair cənab Şarl Mişel tərəfindən yayılmış bəyanatda aydın şəkildə deyilir ki, Qarabağda yaşayan erməni əhalisinin də hüquqları və təhlükəsizliyi nəzərə alınacaq. Biz bunu tam şəkildə dəstəkləyirik.**

Azərbaycanın bütün əhalisinin hüquq və təhlükəsizliyi Konstitusiya ilə təmin edilir. Azərbaycan çoxmillətli ölkədir və erməni əhalisi Azərbaycanın heç də ən böyük milli azlığı deyil. Yəni bizim Konstitusiyamıza görə, bütün millətlərin nümayəndələri bərabər hüquqa malikdir, o cümlədən illər boyu Azərbaycanda yaşayan ermənilər. Bəli, hüquqlar və təhlükəsizlik məsələləri tərəfimizdən təmin ediləcək". Bu bəyanat Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən IX Qlobal Bakı Forumunda səsləndirildi. Cənab Prezident Forumun açılış mərasimindəki nitqində dünyanı narahat edən problemlərdən danışdı, o cümlədən hər bir insanın təməl hüquq və azadlıqlarının qorunmasının vacibliyini vurğuladı. Şübhəsiz, Azərbaycan kimi demokratik dəyərlərə sadiqlik nümayiş etdirən, kimliyindən, hansı etnik qrupa, hansı dinə mənsubluğundan asılı olmayaraq bütün vətəndaşlarının hüquqi və dini etiqad azadlığı təmin edilən bir ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin pozulduğunu iddia etmək yalnız qarayaxma kampaniyasının bir parçası olacaq. Bəzi dövlətlərin Azərbaycana qeyri-dost münasibətini nəzərə alsaq, cənab Prezidentin çıxışı zamanı "Lakin, təəssüflər olsun ki, biz Ermənistan hökuməti tərəfindən dırnaqarası Dağlıq Qarabağın statusu ilə bağlı fikirlərin səsləndirilməsinin şahidi oluruq. Bu, tamamilə səmərəsizdir və Ermənistanın özü üçün təhlükəlidir. Dağlıq Qarabağ mövcud deyil. Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan parlamentinin qərarı ilə 1991-ci ilin sonlarında ləğv edilib. Bizim ərazimizdə belə bir inzibati struktur yoxdur. Bu səbəbdən, dırnaqarası statusla bağlı istənilən istinad yeni qarşıdurmaya gətirib çıxaracaq. Ermənistan hökuməti bunu anlamalı və tarixi yenidən yazmaq cəhdlərindən çəkinməlidir, çünki tarix artıq yazılıb", fikirlərini səsləndirməsi dünyaya Azərbaycanın haqq yolundan dönməyəcəyi, təxribatlar törətməyə cəhd edən qüvvələrin önünün kəsiləcəyi mesajı idi. Yenə təəssüf ki, Azərbaycanın sürətli inkişafından, təkcə regionda deyil, dünya dövlətləri sırasında söz sahibinə çevrilməsini qəbul edə bilməyən qüvvələr bəd əməllərindən çəkinmir, təxribatçı qruplar vasitəsilə ölkəmizdə guya ki, dini etiqad azaldığına, vətəndaşların sərbəst ibadət etməsinə maneə yaradılması, hətta əhalisinin 90 faizi müsəlman olan bir ölkədə islam dininə təhlükə yarandığını gündəmə gətirməyə çalışırlar.

**Mövzu ilə bağlı "Şərq"ə danışan "Yeni üfüq" Mənəvi İrsin Təbliği İctimai Birliyinin sədri Sevinc Əzimbəyli qeyd etdi ki, Azərbaycan dövlətini insan hüquq və azadlıqlarının, o cümlədən dini etiqad azadlığının pozulmasında ittiham etmək qeyri-mümkündür:**

- Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının ən ali müdafiəçisi məhz Azərbaycan dövləti, dövlət başçısı, eləcə də birinci vitse-prezident Mehriban xanım Əliyevadır. Bu, əlavə sübuta ehtiyacı duyulmayan həqiqətdir. Çünki ölkəmizdə məhz dini sahədə görülən işlər, həyata keçirilən layihələr bunu öz-özlüyündə sübut edir. Nə Azərbaycan Prezidenti, nə ölkənin birinci xanımı bu işləri kiməsə xoş gəlsin, hansısa başqa dövlət razı qalsın deyə etmir, bu, dövlət başçısının da, Mehriban xanımın da zəngin mənəviyyatından irəli gəlir. Cənab Prezident də, Mehriban xanım Əliyevanın da regionlara səfərləri zamanı ilk ziyarət etdikləri yerlər dini ocaqlar olur. Fərqi yoxdur, bu, islam dininə aid məsciddir, yoxsa qeyri-islam dininə aid. Bütün dini ibadət yerlərinə münasib eynidir: dini abidələr qorunmalıdır, təmirə ehtiyacı olanlar təmir edilməlidir, ehtiyac varsa yeniləri inşa edilməlidir. Biz bu ənənəni 30 ildən sonra işğaldan azad edilən doğma Qarabağımızda da gördük. Cənab Prezident və Mehriban xanım Qarabağda erməni vandallar tərəfindən viran edilmiş məscidləri, məbədləri ziyarət etdilər. İstisnasız, bütün dini abidələrin, dini məkanların təmirinə, bərpasına göstəriş verildi. Qarabağda ən uca ibadət evi isə Şuşada inşası planlaşdırılan məscid olacaq. Zəfər məscidi. Belə bir reallıq göz önündədirsə, ölkəmizi, dövlətimizi dini etiqad azadlığının pozulmasında, xüsusilə də islam dininə qarşı hörmətsizlik edilməsində günahlandırmaq absurddur. Sevindirici haldır ki, ölkəmizin sərrast düşüncəli vətəndaşları da bu təxribatların haradan, hansı qüvvələrdən qaynaqlandığını başa düşür və dövlətimizin yanında dayanaraq, bədxahlarımızın qarşısında sipər olurlar.

Qeyd etməliyik ki, Azərbaycan və ölkəmizin paytaxtı indiyədək neçə-neçə beynəlxalq tədbirlərə, o cümlədən dini məzmunlu tədbirlərə ev sahibliyi edib. Ötən ay Bakıda G20 Dinlərarası Foruma regional hazırlıq iclası çərçivəsində "Prioritet qlobal məsələlər üzrə multikultural perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirildi. Konfransda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə qeyd etdi ki, ölkəmiz multikultural ənənələr diyarı, dünyaya özünün tolerant həyat modelini təqdim edən qabaqcıl dövlətdir. Azərbaycanda multikulturalizm dövlət siyasəti kimi həyata keçirilir və dövlətimizin başçısı bu dəyərli ideyanın qlobal müstəvidə fəal müdafiəçisidir. Din xadimləri də prosesə öz töhfəsini verir. Alternativi olmayan dinc birgəyaşayış, sülh, əmin-amanlıq, tərəqqi formulu olan multikultural həyat tərzimizlə fəxarət duyuruq və bunu bütün dünyaya təqdim etmək fürsətindən məmnunuq.

**S.Əzimbəyli bildirdi ki, Azərbaycanda insan hüquq və azadlıqları, həm də dini etiqad azadlığı ilə ehtiva olunur:**

- Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Əgər ölkəmizdə qeyri-islam dinlərinə yad, ögey münasibət olsaydı, xalqların sülh şəraitində, mehribancasına birgə yaşayışı min illərdir davam edərdimi? Dini etiqad azadlığının nəinki pozulması, kobud şəkildə tapdanması, insanların mənsub olduğu etnik qrupa görə təqib edilməsi, soyqırıma məruz qalması Ermənistan kimi separatçı, işğalçı dövlətlərdə baş verir. Bəzi Avropa ölkələrində biz bu gün də islamafobiyanın şahidiyik. Hansı bu dövlətlər özlərini demokratiyanın beşiyi, insan hüquq və azadlıqlarının müdafiəçisi hesab edir. Amma başqa dinlərə münasibətdə demokratik dəyərləri üstün tuta bilmirlər. Azərbaycanda indiyədək kimsəyə dini etiqadına görə təzyiq, basqı olmayıb. Hansısa vətəndaşın qanun pozuntusuna, yaxud konkret cinayət əməlinə görə cəzalandırılması bütövlükdə cəmiyyətin müdafiəsidir. Əksini isbat etməyə çalışanlar, gərək ölkələrində məhkəmə hüquq sistemini də ləğv etsinlər, təcridxanaları, cəzaçəkmə müəssisələrini də. Azərbaycan kimi çoxmillətli dövlətdə qanun hamı üçün eynidir. Bütün dini etiqadların qanun qarşısında bərabərliyi dövlətin demokratik dəyərlərə sadiqliyinin nümunəsidir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Azərbaycanda təhsil haqları çox yüksəkdir

## Bunun müqabilində tələbələrə lazımi biliklər verilmir

**Azərbaycanda təhsil haqlarının həddindən artıq yüksək olması hər il xoşagəlməz hallara səbəb olur. Əhalinin gəlirləri ilə müqayisədə qat-qat baha olan bu qiymətlər yüzlərlə tələbəni qəbul olunduğu ixtisaslar üzrə təhsil almaq hüququndan məhrum edir.**

Yüksək təhsil haqqı tələbələrin sevincini qursağında qoysa da, ali məktəb rəhbərliyi zərrə qədər də təəssüf hissi keçirmir. Təhsil ocaqlarına kommerisya obyekti kimi baxan rektorlar öz gəlirlərini artırmaq üçün ildən-ilə qiymətləri daha da artırır. Ənənəyə uyğun olaraq bu il Azərbaycanda ali məktəblərdə bəzi ixtisaslara qəbul üzrə təhsil haqlarında artım müşahidə edilir.

**Məhz bu səbəbdən də təhsil eksperti Elçin Əfəndi ali təhsil müəssisələrində ödənişli təhsilə görə müəyyən edilmiş məbləğin mümkün qədər aşağı salınmasını təklif edir .**

Azərbaycanda illik təhsil haqlarının region ölkələrə baxanda olduqca çox olduğunu vurğulayan E.Əfəndinin "Şərq"ə açıqlamasına görə, cari ildə də bəzi universitetlərin illik təhsil haqlarında əsassız artımlar müşahidə olunur: "Hər hansı bir Universitetin turizm işinin təşkili ixtisasının illik təhsil haqqı Maliyyə ixtisasının təhsil haqqından daha çoxdur. Burada məqsəd az bal toplayan abituriyentləri "tor"a salmaqdır. Baxın, bütün qruplarda 150 ballıq ixtisaslar var. Həmin ixtisasların illik təhsil haqqı ən prestijli ixtisasların bir çoxunun illik təhsil haqqından daha bahadır. Niyə? Çünki universitetlər bilir ki, 150-200 bal aralığı yığanlar əlacsızlıqdan, "təki qəbul olum" prinsipilə məhz həmin ixtisasları yazacaqlar. Nəticədə universitet qazanacaq. Halbuki, ödənilən təhsil haqqı, təhsilin keyfiyyətindən yüksəkdir. Aldığımız təhsil haqqı ilə keyfiyyət verə bilmirik. Tələbənin ödədiyi illik təhsil haqqı ilə ona keçilən dərsin keyfiyyəti arasında böyük bir ziddiyyət var.

Bir neçə universiteti çıxmaqla Azərbaycanda fəaliyyət göstərən heç bir ali təhsil ocağının "kampus"ları yoxdur, yataqxanalar bərbad vəziyyətdədir, laboratoriyalarında iş aparılmır. Müasir təhsil standartları və innovasiyalara cavab verən təhsil bazaları da yoxdur. Əgər tələbələri bununla təmin etmiriksə, bu qədər yüksək təhsilhaqqı tələbi də səhvdir".

Ekspertin sözlərinə görə, universitetlərdə təhsil haqlarının yüksək olması elə vəziyyət yaradır ki, abituriyentlər xarici təhsil müəssisələrinə müraciət edir.

**Şəymən**

# Bizi biz edən dəyərlərimizdir

## Dövlət maraqlarının təbliği, vətənpərvərlik ideyası milli mediamızın ana xəttini təşkil edir

**Media həyatın bütün sahələrini əhatə edən platformadır. Dövlətçiliyin müdafiəsi, sosial problemlərin işıqlandırılması, siyasi avantüraların qarşısının alınması, feyk xəbərlərin ifşası, cəmiyyətin həqiqi və dolğun informasiyayla təmin edilməsi, bundan əlavə, mediaya pənah gətirən narazı insanların hansısa probleminin həllinə kömək. O qədər görüləcək iş var ki! Lakin bir vəzifə var ki, o, media üçün də əsasdır. Baş vəzifədir. Bu, Vətəni qorumaqdır. Sözün bütün mənalarında. Azərbaycan mediası - onu təmsil edən jurnalistlər qələmi istənilən anda süngüylə əvəz etməyi bacaran vətənpərvərlərdir.**

Hələ silahlı mərhələyə keçməmiş Qarabağ münaqişəsi dövründə, Birinci Qarabağ müharibəsində və 28 illik işğal dövründə mediamız necə fədakar idisə, 44 günlük Vətən müharibəsi günlərində də Azərbaycan jurnalistləri Vətənə bağlılıqlarını, "Öncə Vətən" anlayışının sadəcə iki kəlmədən ibarət olmadığını sübut etdilər. Şübhəsiz, Azərbaycan mediası bu əzmkarlığı sələflərindən əmanət alıb. Milli mətbuatımızın bünövrəsinin vətənpərvər ziyalı Həsən bəy Zərdabi tərəfindən necə möhkəm qoyulduğunu, XIX əsrdən üzü bəri nəşr olunan qəzet və məcmuələrin milli ruhu davam etdirməsiylə görmək olar.

### Cümhuriyyət mətbuatının əsas qayəsi vətənpərvərlik idi

Mətbuat tədqiqatçısı, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlı cümhuriyyət dövrü mətbuatından danışarkən vurğulayır ki, Azərbaycan ictimai-siyasi fikir tarixində ermənizmə ilk cəbhəni açan məhz milli mətbuatımızın nümayəndələri olub və zərərli daşnak ideologiyası ilə mübarizədən bir an belə geri çəkilməyiblər. "Əkinçi" ilə başlayıb "Ziya" ilə, "Kaspi" ilə, 1905-ci ildən sonra isə "Həyat", "İrşad" qəzetləri, Azərbaycan Xalq Cümhuriyyəti qurulduğu zamansa "Azərbaycan" qəzeti ilə davam edən milli məfkurənin təbliğatının önündə dövrün görkəmli şəxsiyyətləri - H.Zərdabi, Ə.Topçubaşov, Əhməd bəy Ağaoğlu, Firudin bəy Köçərli, Haşım bəy Vəzirov, Əli bəy Hüseynzadə, Rza bəy Xəlilov, R.Məlikov, Mehdi bəy Hacınski kimi milli ziyalılarımız, jurnalistlərimiz gedirdi. Ümumilikdə o dövrün milli mətbuatı ideoloji savaşın mərkəzində dayanıb. Azərbaycan türklərinin milli oyanışına təkan verən təsisatların yaradılması və təbliğatını o dövrün qəzet səhifələrində açıq şəkildə görmək mümkündür. Həmçinin "Daşnaksütyun" partiyasının və erməni ictimai-siyasi təşkilatlarının Qafqazda müsəlmanlara qarşı törətdikləri soyqırım hərəkətlərinə qarşı da milli mətbuatımız davamlı mübarizə aparıb, xalqın haqq səsinə çevrilib. 1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdə isə milli hökumətin formalaşma prosesinə informasiya dəstəyinin verilməsi və vətənpərvərliyin təbliği fonunda müstəqil dövlətin müdafiəsi mətbuatın əsas qayəsinə çevrilib.

### Medianın milli mücadiləsi



Azərbaycan mətbuatı "sovet mətbuatı"nın bir qolu kimi təqdim olunsa da, milli xüsusiyyətlərə, dövlətçiliyə sadiq qalan mətbuat nümayəndələrimiz Azərbaycan maraqlarını hər zaman üstün tutmağı bacardılar. Bunun nəticəsidir ki, nankor qonşularımız torpaq iddiası qaldıranda, Qarabağın qara günləri başlayanda erməni yalanlarına qarşı duran və müstəqillik uğrunda mübarizənin önündə gedənlər sırasında Azərbaycan jurnalistləri də vardı. Vətənpərvər ziyalılarımız çəkinmədən ölkəmizin mənafeyini müdafiə edərək həqiqətləri dünyaya çatdırmağa çalışırdılar. Bu haqq savaşında Azərbaycan mediası 10-larla şəhid verdi. Onlar o kəslər idi ki, Azərbaycanın informasiya blokadasını yarmağa can atırdı. Erməni təcavüzünü, erməni vəhşiliyini dünyaya tanıtdıran da onlar oldu. Salatın Əsgərova, Alı Mustafayev, Osman Mirzəyev, Fəxrəddin Şahbazov, Çingiz Mustafayev, Kazımağa Kazımov... Şəhid jurnalistlərin xatirəsini əziz tutan mediamız 44 günlük Vətən müharibəsində ənənəsinə yenə sadiq qaldı. Ən qaynar nöqtələrdə, güllə yağışı, raket atəşləri altında Vətən qarşısında vəzifə borcunu ləyaqətlə davam etdirdi. Azərbaycan Dövlət Televiziyasının operatoru Sirac Abışov və AZƏRTAC xəbər agentliyinin əməkdaşı Məhərrəm İbrahimov da erməni vandallarının basdırdığı minaya düşərək şəhid oldular. 1991-ci ildə Qarakənd səmasında erməni separatçıları tərəfindən vurulan vertolyotda həlak olan həmkarları kimi, onlar da Qarabağa xidməti vəzifələrini yerinə yetirməyə getmişdi. Lakin bu, sıradan bir vəzifə deyil. Bu vəzifənin adı məhz vətənpərvərlikdir. Həmkarlarımızı Kəlbəcərə aparan məhz Vətən sevgisi idi. Hansı ki, heç bir təhlükə onun qarşısını kəsə bilməz. Təbii ki, mediamızın örnək aldığı şəxs ilk növbədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev idi. Prezidentin Vətən müharibəsi günlərində dünyanın 30-a yaxın media quruluşuna verdiyi müsahibələr nəinki hər bir azərbaycanlıda qürur hissi oyadırdı, dünya mediası üçün də hədəflərin, bu dəfə sözlə dəqiq vurulmasının ən gözəl nümunəsi idi. 2020-ci ilin 6 noyabr tarixində cənab Prezidentin "BBC News"a verdiyi müsahibə isə Vətən müharibəsinin media müstəvisində savaşının kulminasiya nöqtəsi oldu. Bu müsahibədə Prezident İlham Əliyevin təmkininə heyran qalmamaq olmur. BBC müxbirinin inadcı, qərəzli, erməniпərəst mövqeyi, eyni sualın üzərinə təkrar-təkrar qayıtması və aşkar şəkildə erməni tərəfini müdafiə etməsi fonunda cənab Prezidentin səbirlə, təmkinini pozmadan sərrast cavabları dünya media tarixində nadir görünən hadisə idi. Mübaliğəsiz demək olar ki, Azərbaycan mediası Vətən müharibəsində cənab Prezidentin çıxışlarından və xarici kütləvi informasiya quruluşlarına, tv-lərə verdiyi müsahibələrdən ilhamlanırdı. Bir sözlə, İlham Əliyev Vətən müharibəsində həm də medianın sükanı arxasına keçmişdi və Azərbaycan mediasına yol göstərirdi. Bu müsahibələr Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb etdi. Azərbaycan mediasının üzərinə düşən vəzifə də Prezidentin apardığı media siyasətini davam etdirməkdir. Müharibə günlərində cəbhənin qaynar nöqtələrində olan, şəhidlər verən mediamız müharibədən sonrakı dövrdə daha da əzmlı çalışmağı qarşısına məqsəd qoyub.

### Mediamız yeni mərhələdə də vətənəpərvərlik ideyasına söykənir

**Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu "Şərq"ə açıqlamasında medianın fəaliyyətinin yalnız bilgi vermək deyil, eyni zamanda maarifləndirmə və təbliğat olduğunu vurğuladı:**

- Bu mənada mediamızın üzərinə böyük vəzifə düşür. Milli dəyərlərin təbliği, Vətənə sevgi, vətənpərvərlik, zatən hər zaman Azərbaycan mediasının diqqət mərkəzindədir. Tarixə nəzər salsaq XIX əsrin sonları XX əsrin əvvəllərində başlayan milli özünüdərk prosesinin dövrün mətbu orqanları tərəfindən ön planda tutulduğunun şahidi olarıq.

Cümhuriyyət dövrü mətbuatında, məsələn, "Azərbaycan" qəzetində milli ziyalılarımız erməni məsələsinə tutarlı məqalələr yazırdı. Üzeyir bəy, Əlimərdan bəyTopçubaşov, Məhəmməd Əmin Rəsulzadə... Həmçinin o dövrün əksər ziyalıları Azərbaycan məfkurəsini, azərbaycançılığı ön planda saxlayırdı. Bu gün eyni vəzifə müasir mediamızın üzərindədir. Dövlət maraqlarının təbliği, vətənpərvərlik ideyası milli mediamızın ana xəttini təşkil edir. Sizə vacib bir məqamı

ehtiram var. Hətta çəkinmədən deyə bilərəm ki, bizim şəhidlik və qaziliyə baxışımız digər türk xalqlarının baxışlarından yaxşı mənada fərqlənir. İstər efir olsun, istər print-media, istərsə də internet mediası şəhidlik və qazilik vətənpərvərliyin ana xəttini təşkil edir. Bizi biz edən min illərdir qoruyub saxladığımız, keşiyində dayandığımız dəyərlərimizdir. Və bu işdə mediamız üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir. Şübhəsiz ki, bu gün Azərbaycanın uğurlarından, "dəmir yumruğu"ndan narahat olan qüvvələr var və onlar hər vəchlə dövlətimizə mane olmağa cəhd edirlər. Mediamızın vəzifəsi şər qüvvələrin önünü kəsmək və dəyərlərimizi gələcək nəsillərə çatdırmaqdır ki, qan yaddaşımız itməsin, pozulmasın.

**Məlahət Rzayeva**

# Yaşayış ucuz deyil, təhsil haqqı da yüksəkdir

## Əcnəbi tələbənin Azərbaycana gəlməsinin səbəbi olmalıdır



**Son günlər əcnəbi tələbələrin yerli universitetlərimizə cəlbi məsələsi ciddi müzakirə mövzusuna çevrilib. Məsələni gündəmə gətirən mütəxəssislər bu sahədə universitetlərin yol verdikləri boşluqlar sadalanmaqla yanaşı, bir sıra zəruri tövsiyələr də veriblər. Qeyd edək ki, bu yaxınlarda AzEdu təhsil portalının təşkilatçılığı ilə "Əcnəbi tələbələrin Azərbaycan universitetlərinə cəlbi: problemlər və həll yolları" mövzusunda "dəyirmi masa" keçirilib.**

İştirakçılar qeyd edilən istiqamətdə mövcud olan problemlərə diqqət çəkərək, atılması vacib olan addımlardan danışıblar. Xarici ölkələrdən olan tələbələrin Azərbaycan universitetlərinə cəlbi istiqamətində universitetlərin marağının artırılması, Təhsil Nazirliyinin müvafiq addım atmasının, vahid platformanın yaradılmasının zəruriliyi vurğulanıb.

Həmçinin, əcnəbi tələbələr üçün bir sıra güzəştlərin tətbiqi, təqaüd proqramlarının həyata keçirilməsi, universitetlərdə xarici dildə tədrisin yaxşılaşdırılması istiqamətində bir sıra zəruri təkliflər irəli sürülüb.

Məlumat üçün bildirilib ki, Azərbaycan universitetlərində cəmi 7400 əcnəbi tələbə təhsil alır. Onların da böyük əksəriyyəti qardaş Türkiyə, İran, Gürcüstan (sonrakı yerləri Rusiya, İraq, Nigeriya, Suriya, Pakistan, Çin və s.) tutur. Göründüyü kimi, birincisi, ümumi rəqəmin özü çox azdır. İkincisi də, təhsili güclü olan Avropa, Amerika, Koreya, Yaponiya və s. kimi ölkələrdən bircə nəfər də olsa, tələbə yoxdur.

*Ekspertlər isə hesab edir ki, Azərbaycanda təhsil almaq istəyən əcnəbi təbii olaraq, universitetlərin reytinqinə nəzər salır. Azərbaycanda isə təhsilin keyfiyyəti arzuolunan səviyyədə deyil.*

**Xaricdə təhsil üzrə mütəxəssis Fuad Hacıyev prosesdə xaricdə təhsil şirkətlərinin rolunun vacibliyindən danışıb, əcnəbi tələbələrin cəlb edilməsi üçün lazımi şəraitin yaradılmalı olduğunu vurğulayıb:** "Lazımi göstəriciyə sahib olan bir tələbənin tam təqaüdlə başqa ölkədə təhsil almaqdan imtina edib Azərbaycana gəlməsinin bir səbəbi olmalıdır. Məlumdur ki, ölkəmizdə yaşayış ucuz deyil, təhsil haqqı da ödənməlidir. Digər universitetlərlə bizdə çalışan mütəxəssislər arasında da elə bir fərq yoxdursa, tələbə təbii olaraq tam təqaüd qazandığı xarici universiteti seçəcək. Əcnəbi tələbələrin cəlb edilməsi üçün universitetlərimizin xaricdə təhsil şirkətlərilə əməkdaşlığa açıq olması da vacibdir. Məsələn, bir şirkət tələbələri əməkdaşlıq etdiyi universitetə cəlb etmək üçün yüksək məbləğdə xərc çəkdiyi təqdirdə, universitetdən lazımi məbləği ala bilmirsə, o zaman təbii ki, buna maraq göstərməyəcək. Əcnəbi tələbələri sadəcə kapital kimi görmək doğru deyil. Həmin tələbə ölkəmizi gəldikdən sonra onsuz da müəyyən xərclər çəkməli olacaq. Əsas olan bunun üçün lazımi tələbləri yerinə yetirməkdir".

***"Azərbaycana yalnız öz ölkələrində ali təhsil almaları mümkün olmayan əcnəbilər gəlir. "Onlar öz ölkələrində çox aşağı nəticə göstərirlər"***

O, əcnəbi tələbələr üçün yaradıla biləcək imkanlardan söz açaraq, əsas məsələnin bu olduğunu vurğulayıb: "Yataqxana problemi də vacib həll edilməli məsələlərdəndir. Həmçinin illik təhsil haqqına müəyyən güzəştlər də nəzərdə tutula bilər. Biz beynəlxalq sərgilərdə təmsil olunmaq, universitetlərimizi tanıtmaq istəyiriksə, elə şərait yaratmalıyıq ki, bura maraq cəlb edə bilək. Söhbət sadəcə maddi maraqdan deyil, tələbənin rahatlığından da gedir. Hər hansı xarici ölkədən tələbəni ölkəyə gətirmək problem deyil, əsas məsələ o tələbəyə hansı imkanların yaradılmasıdır".

**Təhsil eksperti Kamran Əsədov isə "Şərq"ə açıqlamasında qeyd edib ki, ölkəmizdə təhsil alan əcnəbilərin sayına baxanda, dünyanın inkişaf etməkdə olan ölkələri ilə müqayisədə nəticənin ürəkaçan olmadığı görünür:** "Məsələn, Sinqapurun ərazisi Bakının yarısı boydadır. Amma buna baxmayaraq, Sinqapurun iki universitetində əcnəbi tələbələrin sayı ildə 80 min nəfər olur. Xaricdən gəlib Türkiyədə təhsil alanların sayı 850 min, Rusiyada isə 240 min nəfərə çatır.

Bizdə isə vəziyyət əksinədir. Azərbaycandan xaricə gedib orada təhsil alanların sayı ölkədə təhsil alan əcnəbilərin sayından qat-qat çoxdur".

Ekspertin fikrincə, ölkə xaricindən Azərbaycana tələbə gəlməsinin müsbət tərəfləri çoxdur: "Əvvəla bu hal universitetlərin reytinqinə təsir göstərir. Azərbaycanda olan 54 universitetin heç biri dünyanın reytinq cədvəlində yer almayıb. Bunun üçün xaricdən gələn tələbələrin sayı kifayət qədər olmalıdır. Eyni zamanda əcnəbi tələbələr ölkə ərazisində pul xərcləyirlər. Xarici tələbələrin ölkə ərazisində pul xərcləməsi üçün də öncə universitetlər təhsil haqqını aşağı salmalıdır . Türkiyədə xarici tələbələr üçün təhsil haqqı yerli vətəndaşlarla müqayisədə daha azdır. Bunun əvəzində əcnəbi tələbə kirayə və digər ehtiyaclarının ödənilməsi üçün pul sərf edəcək. Ancaq bizdə yerli vətəndaşlar üçün təhsil haqqı 2000-3000 manat arasında dəyişir, əcnəbilər isə 5000 manat ödəməlidirlər. Təbii ki, belə olan halda əcnəbi tələbəyə Azərbaycanda təhsil almaq sərf etmir. Bu baxımdan, yerli universitetlərin öz siyasətlərində dəyişiklik etməsi və əcnəbi tələbələrin cəlbi istiqamətində müvafiq tədbirlər həyata keçirməsi vacibdir".

**K.Əsədovun sözlərinə görə, Azərbaycana yalnız öz ölkələrində ali təhsil almaları mümkün olmayan əcnəbilər gəlir.** "Onlar öz ölkələrində çox aşağı nəticə göstərirlər və ali təhsil almaq şansları, demək olar ki, olmur. Ona görə də Azərbaycan kimi ölkələrə üz tuturlar. Çünki burda əcnəbilərin ali məktəbə qəbul olması və başa vurması çox rahatdır".

**Şəymən**

**Təbrik edirik!**

**Əhmədova Hüsniyyəni** ad günü münasibətilə atası Həsən bəy və anası Sənubər xanım təbrik edir. Uzun ömür, cansağlığı arzulayır, həyatda bütün arzularına çatmağı diləyirlər. Allah bəxtəvər etsin, xoşbəxt ömür sürsün.

## Azercell məhsulları artıq Azərpoçt məntəqələrində!




**Azərpoçt-un Bakı və Abşeron məntəqələrində təqdim edilən Azercell xidmətləri yaxın gələcəkdə bütün şöbələrdə mümkün olacaq.**

"Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədinə sadiq qalan ölkənin lider mobil operatoru "Azercell Telekom" abunəçiləri üçün rahat bağlantını təmin etmək məqsədilə mobil operatorlar arasında ilk dəfə olaraq "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyət ilə yeni formatda əməkdaşlığa başlayır. Belə ki, hazırda Bakı və Abşeron üzrə "Azərpoçt" məntəqələrində Azercell-in ödəmə kartları və digər xidmətlərinin göstərilməsi artıq təmin olunub. Xidmətlərin gələcəkdə bütün ölkəni əhatə etməsi nəzərdə tutulur. Qeyd edək ki, həmin məntəqələrdə xüsusi təlim keçmiş "Azərpoçt" əməkdaşları abunəçilərin Azercell xidmətləri ilə bağlı suallarını cavablandıracaq, bir çox müştəri əməliyyatlarını həyata keçirə biləcəklər.

Paytaxt və bölgələr boyu fəaliyyət göstərən Azercell Müştəri Xidmətləri Mərkəzləri, Azercell Eksklüziv ofisləri, və Azercell-in rəsmi diler məntəqələrində abunəçilər üçün mümkün olan xidmət çeşidləri yaxın zamanda Azərpoçt məntəqələri vasitəsilə də vətəndaşlara təqdim ediləcək.

*Xatırladaq ki, "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti əhaliyə ənənəvi poçt xidmətləri, bank, sığorta və s. kimi qeyri-ənənəvi xidmətlər, elektron ödənişlər, depozitlər və s kimi maliyyə xidmətləri, eləcə də, elektron hökumət və biznes xidmətlərini təqdim edir. Ölkəmizin ən qədim rabitə qurumu olan Azərpoçt ilə ölkənin aparıcı mobil rabitə operatoru "Azercell Telekom"-un əməkdaşlığı hər iki təşkilat üçün əhaliyə daha rahat və keyfiyyətli xidmət göstərməyə imkan yaradacaq.*

## "Səs yazısı yayılan müəllimə cinayət işi açıla bilər"

İradə Cavadova: "Universitetlərdə belə hal baş verdikdə ilk növbədə müvafiq maddəyə əsasən təqsirləndirilən işdən azad edilir"



**Tələbələrdən pul almaq üçün onları imtahandan kütləvi şəkildə kəsməsi ilə ittiham olunan, Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin müəllimi, kafedra müdiri Sədaqət Əhmədovanın əmək müqaviləsinə xitam verilib.**

Qeyd edək ki, bir neçə gün əvvəl Oxu.Az-ın redaksiyasına müraciət edən BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbələri deyiblər ki, kafedra müəllimi Sədaqət Əhmədova pul almaq üçün onları kütləvi şəkildə imtahandan kəsib. Tələbələr redaksiyaya müəllimin səs yazısını göndəriblər.

Şübhəsiz ki, bu hal sosial şəbəkələrdə, media və ictimaiyyətdə ciddi müzakirə mövzusuna çevrilib. Müəllimin işdən çıxarılmasının yüngül cəza olduğunu bildirirlər. İddia edirlər ki, ona həbs cəzası kəsilməli idi.

**Məsələyə münasibət bildirən hüquqşünas İradə Cavadova "Şərq"ə bildirib ki, adətən universitetlərdə belə hal baş verdikdə ilk növbədə müvafiq maddəyə əsasən təqsirləndirilən işdən azad edilir:** "İşdən azad olunmadan sonra materiallar prokurorluğa təqdim olunur. Prokurorluq əgər korrupsiya və yaxud rüşvətxorluq halının olub-olmamasını müəyyən edərsə, cinayət işi açılır. Cinayət faktı olduqda birinci mərhələdə təbii ki, həbs tədbiri görülmür. Məsələ təsdiqini tapdıqda prokurorluq müvafiq maddə ilə iş qaldıraraq məhkəməyə araşdırmağa göndərir. Məhkəmədə isə ittiham üzrə işə baxılaraq müvafiq cəza tədbirləri görülür".

**Nihat Müzəffər**

## Zaur Röya üçün 4 min manatlıq libas hazırladıb

İfaçı instaqramda həmin geyimlə fotosunu paylaşıb



**Müğənni Röya Ayxan aparıcı Zaur Kamalın ona hədiyyə etdiyi 4 min manatlıq libası geyinib.**

"Şərq"in xəbərinə görə, ifaçı instaqramda həmin geyimlə fotosunu paylaşıb.

Qeyd edək ki, aparıcı hədiyyəni "Həmin Zaur" verilişində müğənniyə təqdim edib. Zaur Kamal həmin geyimi 3 gün ərzində özəl olaraq Röya üçün hazırlatdırıb.

**Aygün**

## "Manaf, bərk tut, birdən qaçar"

Müğənnilərin fotosuna şərhlər "yağdı"

**Müğənni Damla həmkarı Manaf Ağayevlə birgə səmimi fotosunu izləyiciləri ilə bölüşüb.**

"Şərq"in məlumatına görə, ifaçının instaqram paylaşımına yüzlərlə bəyənmə və müsbət rəylər gəlib.

"Xarakterli insanları sevirəm. Allah sizi qorusun"- deyə Damla açıqlama hissəsində qeyd edib.

Qeyd edək ki, izləyicilərdən "Manaf, bərk tut, birdən qaçar", "dostuna çox güvənmə", "bir vaxt bir-birini qırırdılar" kimi lağ xarakterli şərhlər bildirənlər də olub.

**Aygün**



## Pandemiyanın ilk aylarında hər yerdə problemlər yaşandı

Ancaq Azərbaycan koronavirusa qarşı ən effektiv mübarizə aparan ölkələrdən biri oldu



**Koronavirusla mübarizə dövründə ən böyük problemlərdən biri məhz oksigen təminatı ilə bağlı olub". Bu sözləri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) İdarə Heyəti sədrinin müşaviri Firəngiz Əliyeva deyib.**

Problemin səbəbi isə budur ki, ölkədə heç vaxt bu qədər oksigen təminatına ehtiyac olmayıb. Bu işin təşkili və yaranmış problemlərin qiymətləndirilməsi olduqca vacib idi. Təbii ki, daxildə bu qiymətləndirmə aparılmışdı və müvafiq boşluqları müəyyən edərək işlər də görülüb.

Onun sözlərinə görə, ölkədə koronavirus pandemiyası başlayandan dövlət qurumları ilə birgə beynəlxalq qurumların da Azərbaycanın yanında olması müsbət amildir.

**Pandemiya dövründə Azərbaycanda COVID-19-la mübarizə işinin səmərəli təşkil olunduğunu vurğulayan infeksionist- hepatoloq Mərdan Əliyevin "Şərq"ə açıqlamasına görə, obyektiv səbəblərdən yaranan digər çatışmazlıqlar da var:** "Oksigenin çatışmazlığına səbəb aparatların çox baha olması və koronavirusa yoluxma hallarının çox olması ilə bağlı idi. Həqiqətən də pandemiyadan əvvəl ölkədə heç vaxt bu qədər oksigen təminatına ehtiyac olmayıb və oksigen balonlarının sayı sabit olub. Hətta pandemiya dövründə ciddi çatışmazlıq yaranmasın deyə xaricdə əlavə oksigenlər alındı. Buna rəğmən yoluxma sayının birdən-birə sürətlə artması və ciddi ağırlaşmaların müşahidə edilməsi bu sahədə müəyyən problemlərin yaşanmasına səbəb oldu. Pandemiyadan əvvəl oksigen aparatları ağciyər zədələnmələri və ağırgedişli pnevmaniyalarda istifadə olunurdu. COVİD-19-a yoluxma zamanı da pnevmaniyaların sayı bir neçə dəfə artmağa başladı və oksigenlərə tələbat artmağa başladı".

**Koronavirusa qarşı mübarizə çərçivəsində səhiyyənin təşkili ilə bağlı yaşanan digər problemlərə gəldikdə isə M.Əliyev deyib ki, əsas problem yoluxmanın ilk aylarında apteklərdə maska, spirt, dərman çatışmazlığı ilə bağlı idi:** "Bir neçə xəstəxananın sadəcə "Covid-19"a yoluxan xəstələr üçün ayrılmasına rəğmən Koronavirus mərkəzlərində yer çatışmazlığı yaşandı. Bütün bunları isə nöqsan kimi qeyd etmək düzgün deyil. Təbii proses idi. Koronavirus infeksiyası qəfildən bütün dünyanı lərzəyə saldı və ölkələr heç bilmədikləri bir xəstəliklə mübarizə aparmaq məcburiyyətində qaldılar. Bu baxımdan ilk aylarda hansısa çatışmazlıqların, narazılıqların yaşanması gözlənilən idi.

Amma sonrakı mərhələdə Azərbaycan koronavirusa qarşı ən effektiv mübarizə aparan ölkələrdən biri oldu. Hətta Azərbaycanın pandemiya ilə uğurlu mübarizəsi ÜST tərəfindən dəfələrlə vurğulanıb, digər ölkələrə nümunə göstərilib. Qısa müddət ərzində ölkə səhiyyəsi koronavirusla səmərəli mübarizə üçün tələb olunan standartlara uyğunlaşdırıldı. Koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alındı, paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradıldı. Modul tipli tibb müəssisələri yaradıldı. Halbuki, Avropa ölkələrində, xüsusən də Almaniyada, sadəcə, xəstəxanaların infeksion şöbələri koronavirusla xəstələr üçün ayrıldı. Bu da digər şöbələrdə yatan xəstələrin də virusa yoluxması ilə nəticələnirdi. Bu mənada koronavirusla mübarizə sahəsində görülən tədbirləri yüksək qiymətləndirmək olar".

Pandemiya zamanı COVİD-19-un müalicəsində istifadə olunan dərmanların qiymətinin bir neçə dəfə baha qiymət satılmasına gəldikdə isə infeksionist deyib ki, bu da tələbin çox olmasından qaynaqlanan bir problem idi: "Dərmanlar yox idi. Dövlət xətti ilə ölkəyə gətirilməsi gecikdiyi üçün sui-istifadə halları artdı. Tapılmayan dərmanları apteklər birbaşa xarici ölkələrdən əldə edib baha qiymətə satırdılar. Bu, hər nə qədər xoşagəlməz hal olsa da, qarşısını almaq da mümkün olmurdu".

**Şəymən**

**ELANLAR**

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi tərəfindən Şirinov Şeyda Sahib oğlunun adına verilmiş AD № 0010583 hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Məmmədov Elçin Etibar oğluna məxsus Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş DMX 030 saylı Xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Mahmudov Şahin Qaçay oğluna məxsus Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş DMX 057 saylı Xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, 1- küçəsi, yeni yaşayış massivi ev 8 ünvanında qeydiyyatda olan Quliyeva Svetlana İbrahim qızına məxsus Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsində yerləşən 0.12 hektar torpaq sahəsi olan 248a nömrəli bağ sahəsinin icarəyə verilməsinə dair keçmiş Bağlar Təsərrüfatının İnkişafı və İstismarı Birliyi tərəfindən verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1767



# COVİD-19 pişikdən insana yoluxub

## Tədqiqatın nəticəsi heyrət doğurub

**Tailandda bir ildir aparılan tədqiqatın nəticəsi heyrət doğurub. Tədqiqat nəticəsində COVİD-19-un pişikdən insana ilk yoluxma faktı müəyyənləşib.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, Banqkokun "Prince ofSongkla" Universitetində aparılan tədqiqat zamanı ötən il COVİD-19 xəstəliyi keçirmiş bir baytar həkimin, virusa üzünə tərəf asqırmış pişikdən yoluxduğu məlum olub. Baytardan götürülən analizlərdə görünən viruslar 5 gün öncə müalicə etdiyi pişikdən alınmış analizlərdəki virus nümunələri ilə eynilik təşkil edib. Müəyyən edilib ki, pişik virusa sahiblərindən yoluxub, baytara gətirildikdə isə burnundan nümunə götürülən zaman asqırdıqda baytar həkimini də virusa yoluxdurub. Baytar həkim pişiyi müayinə edərkən yalnız tibbi maskadan istifadə edib, başqa qoruyucu əşyası olmayıb. Koronavirus pandemiyası başladıqda alimlər virusun heyvanlardan - pişik, it, siçanlar, vəhşi gəlincik, yarasa, vəhşi camışlar, donuz, dovşan, tülküdən keçə biləcəyini, məməlilərin bir çox növünün virus daşıyıcısı ola biləcəyini xatırladırdı. ABŞ Səhiyyə Təşkilatı da ev heyvanları bəsləyənlərin pandemiya müddətində onlarla məsafəli davranmasını tövsiyə edirdi.

**Məlahət**

# Keçmiş sevgililər başından güllələnmiş halda tapılıb



**İstanbul Bakırköydə keçmiş sevgililər başından güllələnmiş halda tapılıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, kafedə ofisiant işləyən Alper Balcı (20) iyulun 16-da keçmiş sevgilisi Suna Tanrıkulu (20) ilə 4 mərtəbəli binanın zirzəmisində görüşüb. Bir müddət sonra binadan iki atəş səsi eşidilib.

Alper Balcı, iddiaya görə, A.C. adında dostuna zəng edərək "Suna özünü vurdu, tez gəl" deyib. A.C.-nin məlumatından sonra polis və sağlamlıq qrupları hərəkətə keçib. Balcı və Tanrıkulu sol döş qəfəsindən güllə yarası ilə tapılıb. Alper Balcının həyatını itirdiyi müəyyən edilib, ağır yaralanan Suna Tanrıkulu xəstəxanada müalicə altına alınıb. Hadisənin intihar və ya qətl olduğu araşdırılır.

**Turan**

# Afrikada aclıq

## Aİ mübarizə üçün 1,8 milyard avro ayırıb



**"Avropa İttifaqı (Aİ) Afrika ölkələrinə 1,8 milyard avro məbləğində maliyyə yardımı edib. Bu vəsait aclıqla mübarizə üçün istifadə ediləcək".**

**"Report" "RBC-Ukrayna"ya istinadən xəbər verir ki, bu barədə Avropa İttifaqının xarici siyasət üzrə ali nümayəndəsi Josep Borrell bildirib.**

**Onun sözlərinə görə, Ukraynadakı müharibə dünyada sabitliyi pozub: "Bu səbəbdən Ukraynanın dəniz limanlarında milyonlarla ton taxıl blokadada qalıb".**

**J.Borrel vurğulayıb ki, Rusiyanın bu addımları müharibə cinayəti kimi qəbul edilməlidir.**

# "Yura dövrünün dünyası 3" filmi

## Satış kassalarında ən çox gəlirə görə liderdir



**Keçən həftə 143 milyon dollardan çox gəliri ilə ABŞ satış kassasında ilk sırada olan "Yura dövrünün dünyası 3" filmi bu həftə də kassada liderliyini qoruyub saxlayır.**

**Azərtac xəbər verir ki, film premyerasının ikinci həftəsində 622 milyon dollardan çox gəlir gətirib. Ekran əsəri pandemiya dövründə qlobal kassada 600 milyon dolları keçən 7-ci film olub. "Pixar" studiyanın "Lightyear" animasiyası 51 milyon dollar gəlirlə kassada ikinci yerə yüksəlib. Məşhur film ulduzu Tom Kruzun baş rol ifa etdiyi "Top Gun: Maverick" ekran əsəri isə siyahıda üçüncü yerdə qərarlaşıb.**

# Qalmaqallı şəkildə ayrılan məşhur cütlük barışıb?



**Məşhur model Cici Hadid keçmiş sevgilisi müğənni Zayn Maliklə barışdığı iddia edilib.**

**Axşam.az xəbər verir ki, şayiələrin yaranmasına səbəb ötən gün modelin qızı və Malikin yer aldığı fotonu paylaşması olub. O, şəkildə Maliki atalar günü münasibəti ilə təbrik edib.**

***Qeyd edək ki, 2016-cı ildən bəri eşq yaşayan cütlük dəfələrlə küsüb-barışıblar. Sonuncu dəfə Zayn Cici evdə olmayanda içəri girmək istəyən anası İlondanı vurub. Bundan sonra cütlük yenidən ayrılmaq qərarı alıb.***





# 600 il sonra ilk...

## 18 yaşlı qız taxt-taca iddialıdır





**Norveçdə 600 ildən sonra 18 yaşlı qız taxt-taca iddialıdır. Norveç şahzadəsi İnqrid Aleksandra 2004-cü ildə Osloda dünyaya gəlib. Onun dünyaya gəlişi kral ailəsinə diqqəti daha da artırıb. Çünki şahzadə 600 il sonra Norveç kral ailəsinin taxta çıxan ilk qadın hökmdar olacaq.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, bu günlərdə şahzadə İnqridin 18 yaşının tamam olması şərəfinə kral sarayında təntənəli mərasim təşkil edilib. Mərasimə məşhur isimlər, kral ailəsinin üzvləri qatılıblar. Şahzadəyə ünvanlanan məktublar da mərasimdə oxunub. Məktublardakı səmimi sözlərdən təsirlənən şahzadə göz yaşlarını saxlaya bilməyib. Əslində, şahzadənin ad günü yanvar ayında qeyd edilməliydi. Lakin pandemiya səbəbindən təntənəli mərasimin vaxtı uzadılıb. Şahzadə mərasimə tünd zoğalı rəngli ayaq ucunadək uzanan libasda, yaxasında medal, başında zərif tacla daxil olub. Şahzadəni atası, vəliəhd Haakon və həyat yoldaşı Mette-Marit, babası kral Harald və kraliça Sonya müşayiət edib. Həmçinin mərasimdə şahzadənin xaç anası şahzadə Mörtha Louise, xaç atası, ispan VI Filip və kraliça Letizia, Danimarka vəliəhdi şahzadə Frederik və İsveç vəliəhdi şahzadə Viktoriya da iştirak ediblər. İnqrid Aleksandra hazırda 18 yaşındadır, lakin o, atası - 48 yaşlı şahzadə Haakon vəfat etdikdən sonra taxta çıxa biləcək. Bunun üçün atası vərəsəlik qanununa dəyişiklik etməyi bacarıb. Dəyişiklik İnqrid Aleksandranın kiçik qardaşlarından əvvəl taxta çıxmasına izin verir. 18 yaşı tamam olmuş şahzadə artıq kral sarayındakı toplantılara qatılır, dövlət işləriylə maraqlanır. Qarşıdakı illər ərzində şahzadə İnqridin cəmiyyətdə daha çox görünəcəyi, dövlət işləriylə daha çox məşğuil olacağı bildirilir. Kral ailəsi şahzadənin məsuliyyətinin artırılmasını istəyir. Bununla yanaşı şahzadə təhsilini də davam etdirəcək.

**Məlahət**



# Sürücünün kabusu...

## Türk nevroloq "yol hipnozu" olmamaq üçün tövsiyələrini verir

**Uzaq yol gedən, əsasən də rayonlara səfər edən sürücülər yol hipnozuna düşməmələri üçün göstərilən tövsiyələrə mütləq əməl etməlidir. Əks halda həm öz həyatlarını, həm digər insanların həyatını risk altına almış olurlar.**

İlk dəfə 1921-ci ilə bir məqalədə istifadə olunan yol hipnozu əksər sürücülərin bilmədiyi və xəbərdar olmadığı fiziki vəziyyətdir.

**Türkiyəli nevroloq Mehmet Yavuzun araşdırmalarına görə, proses sürücü yola çıxdıqdan 2,5 saat sonra başlayır:** İlk dəfə 1921-ci ildə yazılmış bir məqalədə bəhs edilən yol hipnozu anlayışı, nəqliyyat vasitəsini idarə edən şəxsin bir yerə kilidlənərək trasa girməsi deməkdir. 1929-cu ildə edilən bir araşdırmada bu, "gözləri açıq yatmaq" kimi xülasə edilir. Yol hipnozu şüurlu və şüuraltı zehin tərəfindən müxtəlif şeylərə cəmləşərək beynin təsirsiz, özözünə işləmə xüsusiyyətinin ortaya çıxmasıdır. Yol hipnozunu "yol hipnozu" və ya "ağ xətt qızdırması" kimi təsvir edənlər də var.

Fərqli bir şüur vəziyyəti kimi izah oluna bilən bu anlayış şüurun yaşadığı dissosiasiya vəziyyəti kimi də ifadə edilə bilər. Yol hipnozu zamanı şüurun bir tərəfi hipnozun təsiri altında olur, digər tərəfi isə avtomatik olaraq hərəkətə davam edir. Başqa sözlə, ağlımız avtopilotun təsiri altında düşünmədən hərəkət edir. Şüurun bir hissəsi hipnoz altında olarkən, digər hissəsi avtomatik olaraq etdiyi şeyi etməyə davam edə bilər. Bu prosesdə şəxs qismən və ya tamamilə başa düşülmə qabiliyyətini itirə bilər. Bu tip avtopilot effektinin illərlə eyni yolu idarə edən sürücülərdə baş vermə ehtimalı olduqca yüksəkdir".

Qeyd edək ki, yol hipnozunu sükan arxasında yatmaqla qarışdırmaq olmaz. Yol hipnozunda gözlər açıqdır və o, şüurlu fərqində olmadan nəqliyyat vasitəsini idarə edir. Hətta maşın sürərkən şəxs başqa bir şəxslə danışarkən belə, ani yol hipnozu inkişaf edə bilər. O, həmişə gördüyü işarəni görməyə bilər və dönməsi lazım olan döngəni qaçıra bilər.

Yol hipnozu zamanı, sürücülük prosedurları çox vaxt düzgün yerinə yetirilsə də, bu şüur vəziyyətinə girərkən diqqətli olmalıyıq, çünki ən kiçik bir səhv ölümcül nəticələrə səbəb ola bilər. Qabaqdakı avtomobili vurmaq, yük maşınının altına düşmək, düz yolda hərəkətsiz cismə dəymək kimi qəzaların əksəriyyəti yol hipnozu nəticəsində baş verir. Bir sözlə, hipnoz olan sürücünün gözləri açıq olur, amma beyni gözün gördüyünü qeyd etmir və analiz etmir.

Affekt vəziyyətdə olan sürücü zərbə anına qədər son 15 dəqiqə ərzində heç nə xatırlamır. Neçə kilometr getdiyini, qarşısındakı avtomobilin sürətini təhlil edə bilmir. Toqquşma isə adətən 140 km və ya daha çox olur.

Sürücülər hipnozdan xilas olmaq üçün hər 2 və ya 2,5 saatdan bir 15 və ya 30 dəqiqə dayanmalı, nəfəs almalı, gəzməli, çay və kofe içib istirahət etməlidir. Çünki hipnoz uzun yolda 4-cü saatdan etibarən zirvəyə çatır. Ona görə də yolda olarkən müəyyən yerləri və nəqliyyat vasitələrini yadda saxlamaq lazımdır. Yol qəzalarından sonra aparılan araşdırmalarda sürücülərin danışıqlarının böyük əksəriyyəti oxşar cümlələrdir: "Necə baş verdiyini anlaya bilmədim", "Hər şey elə birdən oldu ki. Sadəcə vurduğumu xatırlayıram".

Səyahət zamanı yuxusuz və yorğun olmaq, yolun yeknəsəkliyi, səyahət zamanı zehni olaraq başqa problemlərə diqqət yetirmək tətikləyici amillərdir. Əgər insan yorğun və yuxusuzdursa, ağır yeməkdən sonra maşınına minibsə və ya ağlında mühüm bir məsələ varsa, maşınına minən kimi yol hipnozuna girə bilər. Əslində, zehin intensiv olaraq bir mövzuya fokuslandıqda və ya maşın sürərkən mühüm telefon danışığı edərkən, beyin bütün enerjisini bu sahəyə yönəldə bilər, fərqli bir şüur vəziyyəti ilə avtomobil sürməyi yol hipnozuna çevirə bilər.

**Şəymən**

# 2025-ci ilədək 85 milyon insan iş yerini itirəcək

## İstehsalatın avtomatlaşması və robot texnologiyası inkişaf edir



**İstehsalatın avtomatlaşması və robot texnologiyasının tətbiqi 2020-2025-ci illər arasında 85 milyon işçinin maşınlarla əvəzlənməsinə səbəb ola bilər.**

Azərtac xarici KİV-ə istinadla xəbər verir ki, bu barədə Çinin Beynəlxalq inkişaf barədə bilik mərkəzinin Pekində təqdim edilən hesabatında deyilir.

"Rəqəmsal transformasiya özü ilə yeni sosial çağırışlar gətirir. Avtomatlaşdırılmış istehsal xətləri və intellektual robotlar çox sayda monoton və mexaniki işçiləri əvəz edə bilər ki, bu da ənənəvi peşələrin geniş şəkildə yox olması ilə nəticələnəcək bilər", - deyə sənəddə qeyd olunur.

Ekspertlərin fikrincə, bu, əsasən inkişaf etməkdə olan ölkələrin əmək bazarına ciddi zərbə vuracaq. Belə ki, ucuz işçi qüvvəsi və aşağı istehsal dəyəri inkişaf etməkdə olan ölkələrin beynəlxalq ticarətdə və qlobal əmək bölgüsü sistemində bu günə qədər əsas üstünlüyü olub.

"İstehsalatın mühüm hissəsi süni intellekt texnologiyaları, 3D çapı, həmçinin sənaye robotlarının payına düşəcək ki, onlardan istifadə qabaqcıl ölkələrə üstünlüklər qazanmağa və sənayeləşmədə yenidən rəqabət qabiliyyətini artırmağa kömək edəcək. Belə şəraitdə inkişaf etməkdə olan ölkələr yeni rəqabət üstünlükləri yaratmaqda və qlobal istehsal zəncirində öz mövqelərini qorumaqda böyük çətinliklərlə üzləşəcək", - deyə hesabat müəllifləri bildirib.

# Zəli oğruları...

## Gölü tarı-mar edirlər





**Türkiyənin Sivas bölgəsində Zəlili göl kimi məşhurlaşmış təbii su qaynağı son zamanlar oğruların məskəninə çevrilib. "Milliyet.com"un xəbərinə görə, oğrular göldəki zəliləri toplayıb satırlar.**

Yerli əhali bundan narahatdır və yerli hökumətdən tədbir görülməsini tələb edir. Zəlili gölün yerləşdiyi Tuzlaköy sakinləri bu gedişlə göldə bir dənə də zəli qalmayacağını deyir. Zəlili göl təkcə zəliləriylə məşhur deyil, eyni zamanda gözəlliyi ilə də cəlbedicidir. Bura həm turistlər çox gəlir, həm də müalicə olunmağa çalışanlar. Xalq təbabətində zəli bir çox xəstəliklərin dərmanı hesab edilir. Qan təzyiqi, iltihabi xəstəliklər, revmatizm, oynaq ağrıları, sədəf, qaşıntı, ekzema kimi dəri xəstəliklərinin müalicəsində zəlilərdən istifadə edilir. Artıq müasir tibb elmi də zəlilərin şəfaverici olduğunu təsdiq edir və klinikaların bir çoxu pasiyentlərə zəli ilə müalicə təklif edirlər. Bunu bilən oğrular da göldəki zəliləri toplayır, ətrafdakı tibb mərkəzlərinə, müalicə işiylə məşğul olan fərdi şəxslərə satırlar. Kənd sakinlərini narahat edən də budur ki, insanlar gölə müalicə məqsədilə gəlir, ancaq bu gedişlə göldə zəli tapılmayacaq. Oğrular zəlilərin az qala nəslini kəsərək təbii artıma mane olurlar. Göldən zəliləri toplayıb bazarda 20-30 lirəyə satırlar. Kənd sakinləri Zəlili gölün dövlət mühafizəsinə alınmasını, təcili tədbir görülməsini istəyir. Kənd sakinləri gölə yalnız müalicə məqsədilə gələnlərə icazə verilməsini, ticarət üçün zəli toplayanların göl ətrafına buraxılmamasını tələb edir.

**Məlahət**